Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

31 İYUL 2019-cu il

№ 133 (4031)

Qiyməti 40 qəpik

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur

# ERMƏNİSTANIN BÖYÜK DÖVLƏTLƏRLƏ MÜTTƏFİQLİK SƏYLƏRİNİN İFLASI RƏSMİLƏŞDİRİLİR

■ səh. 5 ■



Cəbhə təxribatları Ermənistana baha başa gəlir

■ səh. 9 ■

Azərbaycan qazının Avropa üçün önəmi artır - "Şimal axını" ətrafında intriqa qızışır...

■ səh. 8 ■




Avropa ölkələri müsavatçılara oturum izni verməyi dayandırdı

■ səh. 4 ■

Ermənistanda gülməli "möcüzə" - iqtisadiyyatı çökmüş ölkənin pulu güclü valyutalar arasındadır?

■ səh. 7 ■




Banklar hələ də real sektora kredit ayırmaqdan uzaq qaçırlar...

■ səh. 6 ■




"Kontakt Home" müştəriləri nədən narazıdır...

■ səh. 13 ■



"Yetim bir haray var, gəzir dünyanı"

■ səh. 14 ■



■ səh. 4 ■

## Perspektivsiz radikalların yeni xəyali inqilab qrafiki - «Bir payız axşamı»...



Ermənistanın «Fransa cəbhəsində» Azərbaycana iri məğlubiyyətinə daha bir fakt...

■ səh. 3 ■



Türkiyə və Gürcüstana bir turpaketi bir neçə müştəriyə satan dələduz şirkətlər peyda olub...

■ səh. 11 ■

Çöhrəqanlı Azərbaycanın milli-mənəvi və dövlətçilik dəyərlərinə etikasız həmlələrə başlayıb

■ səh. 7 ■

■ səh. 3 ■

Ermənilər təmas xəttində tibbi yardım avtomobilini də atəşə tutdu...



■ səh. 5 ■

Paşinyan Düşənbə, Peterburq, Vyana razılaşmalarını mənasız kağız parçasına çevirdi, ATƏT susur...



■ səh. 11 ■

Xəzəri çirkləndirən çimərliklərə qarşı ən sərt qərar verildi - Nazirlik tərəfindən...



■ səh. 13 ■

Serial qəhrəmanları Azərbaycana "doluşur"...



■ səh. 15 ■

Kitabxana və klublar yeni qaydada idarə olunsa nə baş verəcək...



# Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva Bakıda qəzalı vəziyyətdə olan binalarla bağlı tapşırıqlar verdilər

**Ölkə başçısı İlham Əliyevin tapşırıqları və Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq Qərarına əsasən, Bakı şəhərinin rayonlarında kəskin qəzalı vəziyyətdə olan, bərpa-gücləndirmə və əsaslı təmir işlərinin aparılması mümkün olmayan binalarda yaşayan sakinlərin köçürülməsi istiqamətində işlər davam etdirilir. Müvafiq dövlət qurumlarının apardığı araşdırmalara əsasən, paytaxtın müxtəlif rayonlarında 17 ədəd belə bina müəyyənləşdirilib və bu binalardakı mənzillərdə yaşayan sakinlərin köçürülməsinə başlanıb.**



Bakı Şəhər İcra Hakimiyyətinin Mətbuat xidmətindən baki-xeber.com-a bildirilib ki, qəzalı vəziyyətində olan binalardan biri də Yasamal rayonu, Mirzə Ağa Əliyev küçəsi 150 ünvanında yerləşən 3 mərtəbəli, 43 mənzilli binadır. Bina 1889-cu ildə inşa edilib və uzun müddət əsaslı təmir olunmadığından qəzalı, yaşayış üçün yararsız vəziyyətə düşmüşdür.

Vaxtı ilə Bakı Şəhər XDS İcraiyyə Komitəsinin 16.06.1989-cu il tarixli, 5/195 saylı Qərarı ilə bina qəzalı hesab edilərək sakinlərin oradan köçürülməsinə başlanmışdır. Həmin ildə binadan 23 ailə köçürülüb, sonradan isə işlər yarımçıq qaldığından burada boşalmış mənzillər məcburi köçkünlər tətəfindən zəbt olunub.

Son illərdə binada vəziyyət daha da ağırlaşıb, 2011 və 2017-ci illərdə Fövqəladə Hallar Nazirliyi, "Azərdövlətlayihə" Dövlət Layihə İnstitutunun mütəxəssislərinin burada keçirdiyi təkrar baxışlar bina ilə bağlı əvvəlki rəyləri bir daha təsdiqləyib, sakinlərin təhlükəsizliyinin təmin edilməsi məqsədilə onların dərhal köçürülməsi, ərazinin hasarlanması və həyətə girişin məhdudlaşdırılması ilə bağlı akt tərtib olunub.

Hazırda binadan sakinlərin köçürülməsi işləri davam edir. Bununla əlaqədar bəzi sakinlər ayrılan kömpensasiyaların onları qane etməməsi və digər tələblər irəli sürərək öz narazılıqlarını bildiriblər.

Ölkə başçısı İlham Əliyevin və Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın məsələyə dair tapşırıqları ilə əlaqədar Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov, eləcə də Yasamal Rayon İcra Hakimiyyətinin başçısı Əziz Əzizov qəzalı binada olub, burada yaşayan sakinlər və məskunlaşmış məcburi köçkünlərlə görüşərək onların problemləri ilə yaxından tanış olub, istək və arzularını dinləyiblər.

Eldar Əzizov binanın kəskin qəzalı olması ilə əlaqədar sakinlərin buradan təcili köçürülməsinin vacibliyini vurğulayıb, bildirib ki, buradakı köçürülmə dövlət əhəmiyyətli tədbirlərlə bağlı köçürülmə deyil, binanın istismara yararsız qəzalı vəziyyətdə olması ilə bağlıdır və vətəndaşlara ödəniləcək vəsait kompensasiya deyil, maddi yardım kimi qiymətləndirilməlidir. Sözügedən binada sakinlərin köçürülməsi ilə bağlı ödəniləcək məbləğ şəhər üzrə maksimum həddə müəyyən edilib.

Görüşdə edilən müraciətlərlə bağlı yaşayış sahələrinin yenidən ölçülməsi ilə bağlı müvafiq tapşırıq verilib. Eyni zamanda binada məskunlaşmış məcburi köçkünlərin yerləşdirilməsi və bu zaman onların arzu və istəklərinin nəzərə alınması ilə bağlı Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinə müraciət edilib.

Eldar Əzizov bildirib ki, Birinci vitse-prezident Mehriban Əliyeva tərəfindən bu binada həyata keçiriləcək köçürmə işlərinin tez bir zamanda, vətəndaşların hüquqlarının pozulmasına yol verilməməsi və onlara müvafiq köməkliklərin göstərilməsi ilə bağlı tapşırıqlar verilib, məsələ nəzarətə götürülüb. Həmçinin, sakinlərə deyilib ki, söküləcək binanın yerində hər hansı çoxmərtəbəli bina və ya ticarət obyektinin inşası nəzərdə tutulmayıb.

2 saatdan çox çəkən görüşdə Bakı Şəhər İcra Hakimiyyətinin başçısı sakinlərə mövcud qanunvericiliyə uyğun olaraq real imkanlar daxilində hər cür köməklik göstəriləcəyini, binada köçürülmə işlərinin nəzarətdə saxlanacağını qeyd edib.

Sakinlər görüşdən razı qaldıqlarını bildiriblər.

**Aydın Quliyev Rufiz Qonaqova əmisi İmran Qonaqovun vəfatı ilə əlaqədar üz vermiş kədərə qəlbən şərik olduğunu bildirir və dərin hüznlə başsağlığı verir. Allah rəhmət eləsin!**

# Prezident İlham Əliyev Avropa Gənclər Olimpiya Festivalında ən yüksək nəticə göstərən idmançı və məşqçiləri mükafatlandırdı - birinci yeri tutana 10 min manat...



**Prezident İlham Əliyev Bakı şəhərində keçirilən Avropa Gənclər Olimpiya Festivalında ən yüksək nəticələrə görə Azərbaycan Respublikasının idmançıları və onların məşqçilərinin mükafatlandırılması haqqında Sərəncam imzalayıb.**

Sərəncama əsasən, Bakı şəhərində keçirilən Avropa Gənclər Olimpiya Festivalında ən yüksək nəticələrə görə Azərbaycan Respublikasının idmançıları və onların məşqçiləri aşağıdakı məbləğdə mükafatlandırılır:

Birinci yeri tutan hər bir idmançı - 10 000 manat, onun şəxsi məşqçisi - 5000 manat;

İkinci yeri tutan hər bir idmançı - 7000 manat, onun şəxsi məşqçisi - 3500 manat;

Üçüncü yeri tutan hər bir idmançı - 5000 manat, onun şəxsi məşqçisi - 2500 manat;

Komandanın baş məşqçisi - idman növü üzrə ən yüksək nəticə göstərmiş idmançıya görə şəxsi məşqçinin aldığı məbləğ qədər (bir dəfə) mükafatlandırılır. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə bu Sərəncamdan irəli gələn məsələləri həll etmək tapşırılır.

# Mətbuat Şurasının və Bakı Şəhər Baş Polis İdarəsinin birgə işçi qrupu yarandı

**Azərbaycan Mətbuat Şurası jurnalistlərin peşə fəaliyyətlərini sərbəst və maneəsiz həyata keçirmələrinə hər zaman ciddi önəm verib.**

Azərbaycan Mətbuat Şurası
MŞ
Azerbaijan Press Council

Bunun tənzimlənməsi üçün Şuranın Mətbuatla dövlət qurumları arasında problemlərin həlli Daimi Komissiyası fəaliyyətdədir. Komissiyanın tərkibinə MŞ-nin İdarə Heyətinin üzvləri ilə yanaşı, Azərbaycan Respublikasının Baş Prokurorluğundan, Azərbaycan Respublikasının Daxili İşlər və Ədliyyə Nazirliklərindən nümayəndələr daxildir.

Azərbaycan Mətbuat Şurasının Daxili İşlər Nazirliyi ilə birgə monitorinq qrupu da var ki, onun missiyası bilavasitə kütləvi aksiyalar zamanı jurnalistlərin peşə fəaliyyətlərini sərbəst yerinə yetirmələrinə dəstək göstərilməsinə yönəlib.

Azərbaycan Mətbuat Şurası kütləvi informasiya vasitələri təmsilçilərinin peşə vəzifələrini sərbəst və maneəsiz icrasının daha səmərəli yollarını müəyyənləşdirmək, mövcud istiqamətdəki prosesləri tənzimləmək məqsədilə Daxili İşlər Nazirliyi ilə birgə koordisiya edilmiş iş rejimində fəaliyyətdədir.

Xüsusən də paytaxt Bakı şəhərində müxtəlif rəy sorğuları aparmaq, reportajlar hazırlamaq, jurnalist fəaliyyətindən irəli gələn digər tədbirlər görmək istəyən KİV əməkdaşları hər hansı çətinlik və anlaşılmazlıqla qarşılaşacaqları təqdirdə hər iki qurumun nümayəndələrindən ibarət monitorinq qrupuna məlumat verə bilərlər. Bununla əlaqədar Bakı Şəhər Baş Polis İdarəsindən və MŞ-dən nümayəndələr müəyyənləşdirilib. Onların əlaqə vasitələri aşağıdakı kimidir:

Elşad Hacıyev, Bakı Şəhər Baş Polis İdarəsi - (055) 2889553; (012) 590 68 81

Əvəz Rüstəmov, Azərbaycan Mətbuat Şurası - (050) 206 96 02; (012) 441 35 30

# Xəzərdə qəzaya uğrayan MiQ-29-un axtarışına Türkiyə mütəxəssisləri cəlb olundu

**İyulun 24-də təlim-məşq uçuşları zamanı qəzaya uğramış Hərbi Hava Qüvvələrinin MiQ-29 təyyarəsinin axtarışı üzrə keçirilən əməliyyatlara müasir sualtı robotlar və digər avadanlıqlar, o cümlədən xarici mütəxəssislər və peşəkar dalğıclar cəlb olunub.**



Müdafiə Nazirliyinin mətbuat xidmətindən "Trend"ə bildiriblər ki, əməliyyatlara əlavə qüvvələrin qatılması məqsədilə Türkiyə Respublikasının aidiyyəti qurumlarına da müraciət edilib. Yaxın zamanda türkiyəli mütəxəssislərin ölkəmizə gəlməsi gözlənilir. Eyni zamanda, əməliyyatın əhatə sahəsi genişləndirilərək, ölkəmizin aidiyyəti qurumlarının xeyli sayda gəmi, kater və aviasiya vasitələri də axtarışlarda daim iştirak edirlər. Qeyd edək ki, qəza baş verən andan bu günədək davam edən əlverişsiz küləkli hava şəraitinə baxmayaraq, Müdafiə nazirinin tapşırığına əsasən yaradılan komissiyanın rəhbərliyi ilə axtarış əməliyyatları hazırda da intensiv aparılır.

# Ermənistanın "Fransa cəbhəsində" Azərbaycana iri məğlubiyyətinə daha bir fakt...

**Son vaxtlar Azərbaycanla Fransa arasındakı münasibətlər bütün istiqamətlər üzrə dinamik şəkildə inkişaf edir. Prosesin ən aktiv fazası Fransa məhkəmələrində Qarabağdakı separatçı rejimlə bu ölkənin şəhərləri arasında imzalanmış "dostluq xartiyaları"nın ləğv edilməsi prosesi ilə başladı.**



Sonra Fransanın nüfuzlu şirkətlərini təmsil edən iş adamlarının ölkəmizə səfəri reallaşdı. Həmin şirkətlərin Azərbaycanın qeyri-neft sektoruna maraq göstərdiyi məlum oldu. Bütün bunlardan həm Ermənistan, həm də onların Fransadakı diasporu ciddi narahatlıq keçirməyə başladı. Bütün vasitələrlə bu münasibətlərin inkişafına mane olmağa cəhdlər etsələr də, mümkün olmadı. Artıq Fransanın ən yüksək səviyyəli rəsmi şəxslərinin də ölkəmizə səfərləri reallaşmağa başlayıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 29-da Fransanın iqtisadiyyat və maliyyə naziri Brüno Lö Meri başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. Fransaya ötənilki uğurlu səfərini məmnunluqla xatırlayan dövlətimizin başçısı Fransa Prezidenti Emmanuel Makronla keçirilən səmərəli müzakirələri Azərbaycanla Fransa arasında tərəfdaşlıq əlaqələrinin inkişafına xidmət edən amil kimi dəyərləndirib. Prezident İlham Əliyev iqtisadi əməkdaşlığımızın uğurla inkişaf etdiyini bildirərək, bu baxımdan biznes əlaqələrinin və biznes nümayəndələrinin qarşılıqlı səfərlərinin önəmini qeyd edib.

Fransanın iqtisadiyyat və maliyyə naziri Brüno Lö Mer, ilk növbədə, Fransa Respublikasının Prezidenti Emmanuel Makronun salamlarını dövlətimizin başçısına çatdırıb. Brüno Lö Mer Bakının abadlığının və inkişafının onlarda xoş təəssürat doğurduğunu vurğulayıb. O, Fransa tərəfinin Azərbaycanla siyasi və iqtisadi sahələrdə əməkdaşlığı genişləndirməkdə maraqlı olduğunu deyib. Qeyd edək ki, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva da Fransa Respublikasının iqtisadiyyat və maliyyə naziri Brüno Lö Merlə görüşüb.

Bütün bunlar Azərbaycanın Fransa siyasətində Ermənistanı üstələdiyinə dair tutarlı arqument sayıla bilərmi?

Politoloq Yeganə Hacıyeva "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Fransa ilə Azərbaycanın münasibətləri hər zaman normal olub: "Ancaq buna mane olmaq gücündə olan bir amil olub. O da Fransada geniş təşəkkül tapmış və dərin kök atmış erməni diasporu sayılırdı. Münasibətlərimizin müəyyən periodlarında belə cəhdlər edilib. Qısa zaman da olsa, ürəkləri bulandıra biliblər. Amma Mehriban xanım Əliyevanın Fransaya reallaşan son səfərindən sonra bu prosesdə birdəfəlik dönüş müşahidə edildi. Fransa məhkəmələri ölkəmizlə bağlı olan məsələdə obyektiv qərarlar qəbul etdilər. Sonra iqtisadiyyatla bağlı böyük bir heyətin ölkəmizə səfəri reallaşdı. Təbii ki, bundan ən dərin narahatlığı Ermənistan keçirir. Məsələnin özəlliyi həm də ondadır ki, Fransa ATƏT-in üç həmsədrindən biri və erməni lobbisinin ən güclü olduğu dövlətdir. Ermənilərin ən böyük təlaşı da onunla bağlıdır ki, Azərbaycan diplomatiyası və lobbisi Fransa kimi böyük erməni diasporunun kök saldığı bir dövlətdə də Qarabağ gerçəyini qəbul etdirə bilirsə, o zaman başqa Avropa dövlətlərində buna daha asan nail ola bilər. Ermənilərin qorxduğu məhz bu presedentdir. Məlumdur ki, ermənilər bu qanunsuz faktordan istifadə edərək, Dağlıq Qarabağ regionunda yaradılmış qondarma qurumu müxtəlif təşkilatlara cəlb edirlər. Nə qədər qanunsuz sayılsa da, onlar Dağlıq Qarabağda kütləvi tədbirlər keçirir, xarici ölkələrdən qonaqlar dəvət edirdilər. Hər keçirilən tədbir və ya görüş də xarici mediada işıqlandırılırdı. Bununla da qanusuz rejimin təbliğinə nail olurdular. Artıq Fransa məhkəmələri separatçı rejimlə bağlanan "müqavilələri" ləğv etdilər. Fransa BMT Təhlükəsizlik Şurasının üzvüdür. Fransa-Azərbaycan siyasi-iqtisadi əlaqələrinin möhkəmlənməsini Qarabağ münaqişəsinin danışıqlar yolu ilə həll edilməsi baxımından vacib hesab edirəm.

Nə qədər ki, biz danışıqlar yolu ilə torpaqlarımızı işğaldan azad etməyi birinci plana çəkmişik, burada Fransanın rolunu, eyni zamanda, əhəmiyyətini dəyərləndirməliyik. Yəni Fransa ilə münasibətlərin inkişafı bütün parametrlər üzrə bizə xeyirdir. Rəsmi şəxslərin ölkəmizə etdiyi səfərlər göstərir ki, artıq Ermənistan proseslərə təsir imkanından tam məhrum olunub. Bunu həmin ölkənin diplomatiya sahəsindəki növbəti məğlubiyyəti siyahısına yaza bilərik".

***Məhəmmədəli QƏRİBLİ***

# Ermənilər təmas xəttində tibbi yardım avtomobilini də atəşə tutdu...

## Daşdəmir Əliyev: ”Bu artıq bəşəri cinayət sayılır”

**Azərbaycan-Ermənistan dövlət sərhədində təmas xəttində yerləşən Dövlət Sərhəd Xidmətinin sərhəd döyüş mövqelərinə qarşı düşmən tərəfinin təxribatları davam etməkdədir.**




Dövlət Sərhəd Xidmətinin Mətbuat Mərkəzinin məlumatına görə, 2019-cu ilin 28 iyul tarixində, saat 22:00 radələrində döyüş mövqelərimiz və arxa istiqamətdə hərəkətdə olan hərbi nəqliyyat vasitələrimiz düşmən tərəfindən növbəti dəfə atəşə tutulub.

Düşmən snayperləri tərəfindən açılmış güllələr üzərində "Hərbi tibbi yardım" sözləri yazılmış və qızıl aypara nişanının təsviri olan "UAZ" markalı avtomobilə dəyib. Düşmən snayperlərinin atəş nöqtələri cavab atəşilə susdurulub. Göründüyü kimi, son vaxtlar düşmən ordusu tərəfindən Dövlət Sərhəd Xidmətinin əsgərləri və hərbi hissələri mütəmadi atəşə məruz qalır. Bunun də səbəbi bəllidir. Çünki Ermənistanla həmsərhəd olan müəyyən yerlərdə ön mövqedə artıq Sərhəd Qoşunları xidmət aparır. Ancaq yayılan məlumatdan görünür ki, artıq ermənilər üzərinə "Hərbi tibbi yardım" sözləri yazılmış və qızıl aypara nişanının təsviri olan avtomobilləri belə atəşə tuturlar. Adi müharibə qanunlarının belə pozulduğu bu davranışı necə qiymətləndirmək olar?

Hərbi ekspert Daşdəmir Əliyev qəzetimizə açıqlamasında bildirdi ki, Ermənistanın bu hərəkəti artıq heç bir əndazəyə sığmır: "Tibbi xidmət aparan personala, avtomobillərə istər sülh və istərsə də müharibə dönəmində xüsusi güzəştlər edilir. Bu kateqoriyadan olan avtomobilin atəşə məruz qalması bütün beynəlxalq konvensiyalara arxa çevirmək, onları saymamaq anlamına gəlir. Bununla bağlı BMT-nin tələbləri və digər konensiyalar var. Ermənistan həmin konvensiyaların hamısına imza atıb və tərəfdar çıxıb. Baş verən hadisədə diqqətçəkən xüsusi bir məqam da var. Tibbi xidmət göstərən avtomobilə hansısa yaylım atəş dəyməyib. Birbaşa snayperlə vurulub. Bu da o anlama gəlir ki, məqsədli və düşünülmüş şəkildə atılan addımdır. Bu artıq bəşəri cinayət sayılır. İnsanlığa qarşı olunan həqarətdir. Biz bu faktdan istifadə etməliyik. Bütün beynəlxalq qurumların və səhiyyə təşkilatlarının nəzərinə bunu çatdırmalıyıq.

*”Bütün beynəlxalq qurumların və səhiyyə təşkilatlarının nəzərinə bunu çatdırmalıyıq”*

Ağ xalatlı adama atəş açan düşmənin bütün simasını bununla da ifşa etmək olar. Düşməndə də az da olsa mənlik olmalıdır. Amma biz şahidi oluruq ki, Ermənistan bu hisslərdən də məhrumdur.

Ən diqqətçəkən məqamlardan biri də budur ki, belə hadisələr münaqişə ocağı kimi qəbul edilən Dağlıq Qarabağda deyil, SSRİ dönəmindən aramızda müəyyənləşən sərhədlərdə baş verir. Bir daha sübut olunur ki, Ermənistan yeni təxribatlar, yeni münaqişə ocaqları yaratmağa meyllidir. Bununla da diqqəti sülh prosesindən yayındırmaq istəyir. Sərhəd Qoşunlarının son vaxtlar tez-tez atəşə tutulması bu istəklə bağlıdır. Bizim XİN bu məsələni ciddi şəkildə əlaqədar qurumların nəzərinə çatdırmalıdır".

***Məhəmmədəli QƏRİBLİ***

# Perspektivsiz radikalların yeni xəyali inqilab qrafiki - "Bir payız axşamı"...

**Qurban Məmmədov adlı keçmiş bir vəkil var. Hazırda mühacirətdədir. Buradakı avantüraları baş tutmadığı üçün, indi də internetin yaratdığı qlobal imkanlardan istifadə edərək aranı qarışdırmaq istəyir. Özünə bir internet "televiziyası" açıb. Hərdən bir aksiya keçirərək açıq-açığına izləyicilərdən xərrac toplayır.**




***Rauf Zeyni:** "Azərbaycan xalqı "Bir payız axşamı"nı elə indiki sabitliklə, əminamanlıqla öz hakimiyyəti ilə birlikdə qeyd edəcək"*

Əhval-ruhiyyəsindən hiss edilir ki, işləri yaxşı gedir. Qurban nə edirsə-etsin, axırı pul toplamaq amilinə söykənir.

İndi də "Bir payız axşamı" adlı marafona başlayıb. Hər gün özü kimi perspektivsiz adamları "efirinə" dəvət edib, söhbətlər edir və xalqı aldatmağa çalışır ki, guya payızda Azərbaycanda inqilab olacaq. Hətta bu prosesdə iştirak etməyəcək adamları da hədələyir. Maraqlısı budur ki, Qurban Məmmədov və ona qoşulan azsaylı adamlar inqilabın hansı əsasla baş verə biləcəyi, nəyə əsaslanaraq bu fikri əminliklə söylədikləri ilə bağlı heç bir açıqlama vermirlər. Biz perspektivsiz müxalif dairələrin ifasında belə mahnıları çox eşitmişik. Bu 26 ildə milləti hansı adlarla aldatmadılar? 2000-ci illərin əvvəllərində Heydər Əliyev kimi siyasətçi ilə açıq meydanda mübarizə apara bilməyən bu dairələr bütün ümidlərini onun fiziki yoxluğuna bağlamışdılar və "X günü" adlı lüzumsuz bir təbliğat aparırdılar. Nəticə isə göz qabağındadır. İndi də məhz həmin dairələrin bir qismidir ki, xalqı "Bir payız axşamı" adlı romantik adlarla öz ətrafına cəlb edib, aldatmaq istəyir. Uğursuz radikalların bu cəhdlərini necə dəyərləndirmək olar?

Milli Qeyri-Hökumət Təşkilatları Forumunun prezidenti Rauf Zeyni "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, hər dövrün özünəməxsus dələduzluq alətləri olur: "Müasir zəmanənin dələduzları virtual aləmin yaratdığı imkanlardan məharətlə istifadə edirlər. Onlardan biri də sizin dediyiniz adamdır. Biz söyüş müxalifətinin aqibətini gördük. Öz doğmaları, yaxınları həmin adamlardan imtina etdilər. Gördülər ki, həmin vasitələr effekt vermir. Çünki Azərbaycan mentalitetində xalq arasında, ictimai yerlərdə söyüş söyən kişilərə normal münasibət bəslənmirlər. İndi də müəyyən internet kanallarının vasitəsilə əhaliyə şirin vədlər verməyə çalışırlar. Bəli, həmin müxalif dairələr tam uğursuzluğa düçar olduqlarının fərqindədirlər. Müxtəlif adlar və vədlərlə öz elektoratlarını aldadan radikal camea bu səbəbdən də bütün dayaqlarından məhrum edilib. Bu gün xaricə sığınan bəzi adamlar Azərbaycanın dövlət quruluşunu zorla sarsıtmaq, inqilabi çağırışlar etmək kimi yolu tutublar. Bu qətiyyən yolverilməzdir. Azərbaycan xalqı belə təxribatçıların avantürasına uymamalıdır. Biz bilirik ki, xalqımızın böyük əksəriyyəti həmin çağırışları pisləyir. Azərbaycan dövlətinin bu inkişaf mərhələsində ona zərbə vurmaq cəhdlərinin əsl səbəbi bəllidir. Bunu yalnız bizim düşmənlərimiz istəyə bilər. Təəssüf ki, xaricə sığınan bəzi soydaşlarımız da onların əlində alətə çevrilir. Həmin güc mərkəzlərinin bu məkrli niyyətləri heç vaxt alınmayacaq.

Çünki Azərbaycanda elə bir narazılıq yoxdur ki, o çevrilib inqilabla nəticələnsin. Həmin radikal dairələrin şəxsi dolanışıqları bundan çıxır. Ona görə də bu cür fəaliyyətdən əl çəkə bilmirlər. Xalq bilməlidir ki, ondan yalnız istifadə etməyə can atırlar. Biz bunu qətiyyətlə pisləyirik. Azərbaycan xalqı "Bir payız axşamı"nı elə indiki sabitliklə, əminamanlıqla öz hakimiyyəti ilə birlikdə qeyd edəcək. Kimsə bundan narahat olmasın. Azərbaycan xalqı öz Prezidenti və dövlətinin ətrafında elə birləşib ki, burada hansısa təxribatı törətmək mümkün deyil. Bunu etmək istəyənlər bilsinlər ki, önlərində xalqı görəcəklər".

***Məhəmmədəli QƏRİBLİ***

# Avropa ölkələri müsavatçılara oturum izni verməyi dayandırdı

**Müsavat Partiyasında saxta arayış qalmaqalı daha da böyüməkdədir. Təşkilatın adı tez-tez saxta arayış qalmaqalında hallanır. Bu arada məlum olub ki, artıq Avropada müsavatçılara oturum verilməyəcək. Bununla bağlı Almaniya Federativ Respublikasının Xarici İşlər Nazirliyi 22 fevral 2019-cu il tarixində rəsmi qərar verib.**




***Gülağa Aslanlı:** "Bunu yalnız müsavatçılarla əlaqələndirmək doğru deyil"*

Bu barədə mühacirətdə olan araşdırmaçı jurnalist Yafəz Əkrəm oğlu Həsənov sosial şəbəkə hesabından məlumat verib. Onun yazısından məlum olur ki, bundan sonra oturum almaq üçün səbəbi olan müsavatçılar da geri qaytarılacaq: "Təqdim olunan partiya bileti və arayış sizin şikayətin təmin olunması üçün uyğun deyil".

Almaniya, Münster şəhər məhkəməsinin müsavatçı Rahid Beşirov haqda çıxardığı neqativ qərarda Müsavat Partiyası vəsiqə və arayışlarına münasibət bu cür təqdim olunub. Rahid Beşirov Miqrasiya idarəsinin onun haqda çıxardığı mənfi qərardan məhkəməyə şikayət edib.

Məhkəmə yazır ki, Almaniya Xarici İşlər Nazirliyinin 22 fevfal 2019-cu il tarixli, "Azərbaycan: mühacirlik və deportasiya işləri üzrə..." adlı sənədinə istinad edərək belə hesab edir: "Rahid Bəsirov 1999-cu ildən Müsavat Partiyasının üzvüdür. O, partiya gənclər təşkilatının sədr müavini olub. Müxtəlif vaxtlarda təzyiqlərə məruz qalıb, sutkalıq həbs də olunub. 2015-ci ildə NİDA-dan deputatlığa namizədliyi irəli sürülsə də, MSK qəbul etməyib.

Müsavat Partiyasının onun təzyiqlə üzləşməsilə bağlı verdiyi arayış, əslində, fəaliyyətinə uyğun gəlir. Bəs onda niyə məhkəmə bu arayışı inandırıcı saymayıb? Qurunun oduna yaş da yanır? Qərardan və Almaniya Xarici İşlər Nazirliyinin partiyaya aid olan arayış və vəsiqələr haqda məlumatından belə çıxır ki, onlar indiyə kimi verilən arayışlar haqda araşdırmalar apardıqdan sonda bu nəticəyə gəliblər. Yəni o boyda nazirlik durub havadan belə nəticəyə gəlməyib. Onlar vəsiqə və arayışları saxta saymır, lakin arayışda yazılanları ciddiyə alıb, həqiqətə uyğun hesab etmirlər".

Yafəz Əkrəmoğlunun fikrincə, nazirliyin bu sənədi artıq partiyanın bütün arayışlarına münasibətdə tətbiq oluna bilər: "Yeni məhkəmə, yaxud miqrasiya idarəsi istənilən arayış haqda yoxlama aparmadan belə, bu sənədə əsaslanıb bütün müsavatçılara eyni münasibəti sərgiləyə bilər. Son zamanlar Almaniyada azərbaycanlı siyasi mühacirlərə soyuq münasibətin fonunda belə görsənir ki, elə ucdantutma bu sənədə əsaslanıb arayışların əksəriyyətini həqiqətə uyğun saymayacaqlar ( 8-10 il əvvəl isə heç təzyiqə məruz qalmağı sübut etməyə belə ehtiyac yox idi. Partiya vəsiqəsini göstərmək bəs edirdi). Artıq Almaniyadakı Müsavat Partiyası üzvlərinin çoxuna vəsiqə və arayışların həqiqəti əks etdirmədiyi haqda qərar və bildiriş göndərilib. Bu statusla onu çatdırmaq istəyirəm ki, aldanıb siyasi mühacir kimi Avropaya gəlməyin. Gəlirsinizsə özünüzlə daha tutarlı faktlar gətirməlisiniz".

Belə məlum olur ki, artıq müsavatçılara Avropada oturum icazəsi verilməyəcək. Bu minvalla onların Avropaya gedən yolu bağlanır. O da məlumdur ki, sözügedən məsələdə çoxsaylı saxtakarlıq halının olması barədə fikirlər var.

Maraqlıdır, sözügedən məsələ ilə bağlı nə baş verirə

## "Bu səbəbdən deyilənlərlə razılaşmıram"

Deyilənlərlə bağlı Müsavat Partiyası Mərkəzi İcra Aparatının rəhbəri Gülağa Aslanlı ilə əlaqə saxladıq. O bizə açıqlamasında qeyd etdi ki, Almaniya Məhkəməsinin verdiyi qərar təkcə müsavatçılarla bağlı deyil: "Məndə belə bir sənədin olması barədə oxumuşam, amma həmin sənədi hələ görməmişəm. Burada söhbət, sadəcə, müsavatçılardan getmir. O üzdən, bunu yalnız Müsavat Partiyası ilə əlaqələndirməyi qəbul etmirəm. Sadəcə olaraq, Avropada miqrasiya siyasəti sərtləşdirilir. Çünki Avropada miqrantların sayı artır. Hər bir ölkənin qəbul edə biləcəyi qədər miqrant var. Hamıya məlumdur ki, Suriya, Liviyada qaçqınların sayı artıb və onlar Avropaya gedirlər. Son zamanlar Avropa ölkələrində qaçqınların sayı xeyli artıb. Bu səbəbdən Avropada miqrasiya siyasətinin sərtləşəcəyi gözlənir. Ona görə də bunu yalnız müsavatçılarla əlaqələndirmək doğru deyil. Söhbət müsavatçıdan, cəbhəçidən və yaxud da Azərbaycandan gedəndən getmir. Fərz edək ki, ötən il Azərbaycandan Almaniyaya 3 min nəfər gedib. Tutaq ki, bunlardan 40-ı müsavatçı, 40-ı da cəbhəçidir. Bəs qalanları kimlərdirə Azərbaycandan təkcə müxalif fikirli adamlar getmir. Ona görə də kimlərsə bunu yalnız Müsavat Partiyası ilə əlaqələndirmək istəyirsə, bu doğru deyil. Bu səbəbdən deyilənlərlə razılaşmıram".

***Vidadi ORDAHALLI***

# Ermənistanın böyük dövlətlərlə müttəfiqlik səylərinin iflası rəsmiləşdirilir

**Bir il əvvəl Ermənistanda hakimiyyətin dəyişməsi ölkənin inkişafında dönüşə gətirib çıxarmadı. Paşinyanın populist vədləri ölkə hakimiyyətinin nə Qərblə, nə də Rusiya ilə münasibətlərini yoluna qoya bilmədi. Təsadüfi deyil ki, "İşıqlı Ermənistan" partiyası fraksiyasının deputatı Arman Babacanyan da bunu etiraf edir.**



## *Azad İsazadə: "Bu, Ermənistanın uğursuz xarici siyasət kursu yeritməsinin əyani göstəricisidir"*

Onun sözlərinə görə, Azərbaycandan fərqli olaraq, Ermənistan böyük güclərlə əməkdaşlığını inkişaf etdirə bilməyib. Əksinə, son bir il ərzində bu istiqamətdə ciddi problemlər meydana çıxıb. Onun sözlərinə görə, ölkədə inqilabdan sonra xarici siyasətdə hər hansı bir dəyişiklik görünmür, əksinə, vəziyyət Ermənistanın əleyhinə getdikcə pisləşir. Arman Babacanyan vurğulayır ki, bu durum özündə bir çox narahatlıqları ehtiva edir: "Ermənistan Milli Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan mətbuata açıqlama ilə çıxış edərək, Ermənistanın həyati əhəmiyyətə malik bir sıra problemləri, o cümlədən, hazırlanma mərhələsində olan Milli Təhlükəsizlik Strategiyası barədə danışıb. Qriqoryan bəyan edib ki, milli təhlükəsizliyin yeni strategiyasının dayağı Ermənistan Silahlı Qüvvələri hesab ediləcək. Problem ondadır ki, ölkənin təhlükəsizliyi daha çox ordunun döyüş qabiliyyətliliyi və silahla komplektləşdirilməsindən asılıdır".

Babacanyanın fikrincə, milli təhlükəsizliyin strateji dayaqları iqtisadi, sosial siyasəti təmin edən strategiyalar və ən vacib olan dövlətin xarici siyasət konsepsiyası olmalıdır. Lakin bu sahələrlə bağlı hər hansı strategiya yoxdur.

Ermənistanın milli təhlükəsizliklə bağlı yeni strategiyasında əsas dayağın ordunun hesab edilməsi o deməkdir ki, ölkənin bununla bağlı xarici siyasət kursu fiaskoya uğrayıb. Yəni nə Rusiya, nə də ABŞ-la bu sahədə uğurlu əməkdaşlıq qurmaq mümkün olmayıb. Yeri gəlmişkən onu da qeyd edək ki, əvvəlki strategiyada bu sahədə Rusiya ilə əməkdaşlığa xüsusi önəm verilirdi.

O baxımdan yaranan vəziyyəti ekspertlər necə dəyərləndirirlər?

Sözügedən məsələni "Bakı-Xəbər"ə şərh edən hərbi ekspert Azad İsazadənin sözlərinə görə, bu, Ermənistanın uğursuz xarici siyasət kursu yeritməsinin əyani göstəricisidir: "Yazılı və yazılmayan qaydalar var. Qəbul olunan strategiya yazılı qaydadır. Ancaq məlumdur ki, quruluşdan asılı olmayaraq, Ermənistanın ətraf bütün ölkələrə ərazi iddiaları var. Buna müxtəlif vasitələrlə nail olmaq istəyirlər. Ermənistanın bəyan etdiyi strategiya real strategiya deyil. Bu, sadəcə, vaxtilə ümid etdikləri, söykənmək istədikləri qüvvələrə bir mesajdır. Biz sizə inanmırıq və sizsiz strategiya qəbul edirik, filan. Aydındır ki, bugünkü Ermənistan ordusu bunların öhdəsindən gələ bilməz. Onlar istəyirlər ki, işğal olunmuş əraziləri necəsə qorusunlar.

*"Zaman-zaman Ermənistanın təhlükəsizlik strategiyası terrorizm üzərində qurulub"*

Ancaq real döyüşlər başlasa, heç ona da nail ola bilməyəcəklər. Ona görə də biz başa düşməliyik ki, deyilənlər, sadəcə, kağız üzərində ağıllı ifadələrdir. Zaman-zaman Ermənistanın təhlükəsizlik strategiyası terrorizm üzərində qurulub. Sadəcə, ermənilər bunu rəsmi bəyan etmirlər. Bax, budur mövcud reallıq".

**Vidadi ORDAHALLI**

# Paşinyan Düşənbə, Peterburq, Vyana razılaşmalarını mənasız kağız parçasına çevirdi, ATƏT susur...

**Son günlər Ermənistan hərbçiləri Azərbaycanla həmsərhəd ərazilərdə və Qarabağ cəbhəsində təxribatların sayını artırıblar. Atəşkəsin pozulması halları artıb. Düşmən iyulun 27-də təmas xəttində yerləşən sərhəd döyüş mövqelərinə qarşı atəşkəs rejimini pozmaqla növbəti təxribat törədib.**



## *Əli Orucov: "Sözügedən razılaşmaların Ermənistan tərəfindən nümayişkəranə şəkildə pozulması onu göstərir ki, qarşı tərəf kompromislərdə maraqlı deyil"*

Düşmən snayperləri tərəfindən döyüş mövqelərimizdən arxa istiqamətdə hərəkətdə olan "KamAZ" markalı hərbi yük maşını atəşə tutulub, açılan güllələrdən biri avtomobilin ön şüşəsinə dəyib. Nəticədə düşmən snayperinin atəş nöqtəsi cavab atəşilə susdurulub. Bununla kifayətlənməyən düşmən növbəti gün bir neçə istiqamətdən döyüş mövqelərimizi və arxa istiqamətdə hərəkətdə olan hərbi nəqliyyat vasitələrimizi snayper tüfənglərindən atəşə tutub.

İyulun 28-də təmas xəttində təxribat törətməyə cəhd edən Ermənistan ordusunun müqaviləli hərbi qulluqçusu məhv edilib. İyulun 29-da isə daha bir erməni hərbi qulluqçusu yaralanıb.

Təbii ki, rəsmi İrəvan baş verən prosesləri dünyaya birtərəfli şəkildə çatdırmağı hədəfləyib. Erməni KİV-i yenə də dezinformasiya xarakterli məlumatlar yayır. Ancaq, göründüyü kimi, mövcud mənzərə tamamilə dəyişib. Belə görünür ki, keçən onilliklər ərzində İrəvan təxribatçı ritorikasının qorunub saxlanılmalı olduğuna dair ənənə formalaşdırıb. Danışıqlar prosesi, faktiki olaraq, bu məntiqlə davam etdirilib. Ən başlıcası, baş verən təxribatlar onu göstərir ki, Ermənistan Düşənbədə, Sankt-Peterburqda, Vyanada və Vaşinqtonda əldə olunan razılaşmaları pozur. Sözügedən danışıqlarda əldə olunan bəzi razılaşmaları uğursuzluğa uğratdı. Son təxribatlar, faktiki olaraq, bunu ortaya qoyur.

Maraqlıdır, bəs ekspertlər bunu necə dəyərləndirirlər?

Məsələyə münasibət bildirən AMİP funksioneri Əli Orucovun sözlərinə görə, Ermənistan heç vaxt əldə olunmuş razılaşmalara əməl etməyib: "Son təxribatlar da bunun növbəti əyani sübutudur. İşğalçı dövlət fürsət düşdükcə öz məkrli planlarını və təxribatlarını davam etdirib. Bu həm də onunla bağlıdır ki, onlara qarşı beynəlxalq hüquq normalarının və hamılıqla qəbul olunan prinsiplərin sərt üzü göstərilməyib. Eyni zamanda, bu dövlət öz üzərində heç bir məsuliyyət hiss etməyib. Dəfələrlə Ermənistanla həm razılaşmalarda, həm də beynəlxalq sənədlərdə tələb kimi qoyulub ki, ekoloji tarazlığın pozulmasına, mülki əhalinin atəş altında saxlanmasına yol verməsin. Lakin, göründüyü kimi, Ermənistan bütün bunların heç birinə nəinki əməl etmir, hətta daha da azğınlaşır. Baxın, işğalçıların işğal etdiyi ərazilərin qeyd-şərtsiz boşaldılmasına dair qətnamələr olduğu halda, təcavüzkar dövlət qanunsuz olaraq bizim ərazilərdə məskunlaşma siyasəti həyata keçirir, infrastrukturlar yaradır, nəqliyyat xətti çəkir və s. Düşənbədə və ondan sonra digər şəhərlərdə əldə olunan razılaşmaların Ermənistan tərəfindən nümayişkəranə şəkildə pozulması onu göstərir ki, qarşı tərəf kompromislərdə maraqlı deyil. Yəni işğal olunmuş əraziləri geri qaytarmaq fikrində deyil. ATƏT-in Minsk Qrupu da, həmişə olduğu kimi, yenə yerində sayır".

*"Bu həm də onunla bağlıdır ki, onlara qarşı beynəlxalq hüquq normalarının və hamılıqla qəbul olunan prinsiplərin sərt üzü göstərilməyib"*

Ə.Orucov hesab edir ki, Azərbaycan bütün bu özbaşınalıqlara və qanunsuzluqlara, erməni həyasızlığına baxmayaraq, ciddi tədbir görməlidir: "İmkan verməməlidir ki, Ermənistanın hazırkı siyasi rejimi Azərbaycan ərazilərində öz bildiyi kimi hərəkət etsin. Doğrudur, Azərbaycan diplomatiyası bunu beynəlxalq müstəviyə çıxararaq müəyyən dəstək qazanıb. Lakin bu kifayət etmir və qəbul edilən sənədlərin çoxunun hüquqi qüvvəsi, icra mexanizmləri yoxdur. Bunlar daha çox siyasi xarakterli olsa da, Azərbaycanın tutarlı tədbirlər görməyinə imkan yaradır. Bu imkandan istifadə edərək, Ermənistanın yerini göstərmək mütləq lazımdır ki, özünü rahat hiss etməsin".

**Vidadi ORDAHALLI**

**Bank sektorunun düşdüyü çətinliklərdən xilas olmaq üçün hökumətin atdığı addımlar bu sahədə vəziyyəti əhəmiyyətli dərəcədə dəyişib. Belə ki, artıq banklar üçün ciddi çətinlik sayılan problemli kreditlərin miqdarı sürətlə azalır. Eyni zamanda, yaranmış vəziyyət banklara yenidən kredit portfelini genişləndirmək imkanı qazandırır.**

# Banklar hələ də real sektora kredit ayırmaqdan uzaq qaçırlar...




Amma belə görünür ki, bankların böyük əksəriyyəti hələ də onlara göstərilən bu dəstəyi düzgün qiymətləndirə bilmir. Ən azı o baxımdan ki, hökumət tərəfindən göstərilən dəstəyə rəğmən, banklar hələ də kreditləri yüksək faizlə verir. Eyni zamanda, yenə də hökumətin gözləntilərinə baxmayaraq, banklar real sektora lazımi qədər kredit ayırmaqdan qaçır. Halbuki, banklara dəstək verən hökumət tamam fərqli nəticələr istəyir. Bu barədə danışmazdan öncə qeyd edək ki, banklara dövlət dəstəyi beynəlxalq miqyasda da yüksək qiymətləndirilir. Hətta bu günlərdə beynəlxalq "Moody's" reytinq agentliyi Azərbaycan bank sisteminə dair proqnozunu "sabit"dən "müsbət"ədək artırıb.

Qurum tərəfindən verilən proqnozda yaxın 12-18 ay ərzində bankların kredit qabiliyyətinin necə dəyişəcəyi barədə ehtimallar əks olunur: "İqtisadi artımın davam etməsi, dövlət tərəfindən ev təsərrüfatlarına göstərilən misilsiz dəstək bank sisteminə müsbət proqnoz veilməsini şərtləndirən başlıca amillərdir. Dünyada enerji daşıyıcıların əlverişli qiymətləri, ixracatın artması, iqtisadiyyatda qeyri-neft sektorlarının payının böyüməsi nəzərə alınmaqla 2019-2020-ci illərdə iqtisadi artım sürətinin 3 faizədək artmasını gözləyirik. Hökumətin həyata keçirdiyi islahatlar da ölkədəki iqtisadi artıma müsbət təsir göstərməlidir. Belə vəziyyətdə bankların balansını tarazlaşdırmaq, dövlətin ev təsərrüfatlarına dəstəyi sayəsində bank aktivlərinin daha da keyfiyyətli hala gələcəyini, problemli kreditlərin payının 2020-ci ilin sonunadək 10 faizdən aşağıya enməsini gözləmək olar. İlkin ssenarimizə görə, bankların mənfəətinin artması və mövcud risqlər nəzərə alınmaqla ölçülən aktivlərinin çoxalması sayəsində bütövlükdə bank sistemində kapital yetərliliyi göstəriciləri sabit qalacaq". Hesabatda, həmçinin, pul-kredit və büdcə-vergi mühiti yaxşılaşdıqca hökumətin artıq ayrı-ayrı banklara yox, bütövlükdə bank sektoruna yardım etdiyi də bildirilir.

Xatırladaq ki, Prezident İlham Əliyevin bu il fevralın 28-də imzaladığı "Fiziki şəxslərin problemli kreditlərinin həlli ilə bağlı əlavə tədbirlər haqqında" fərmanın icrası çərçivəsində bankların problemli kreditlərinin həlli istiqamətində əsaslı dönüş yaranıb. Nəticədə Azərbaycanda vaxtı keçmiş kreditlərin məbləği azalmağa doğru gedib. Cari ilin ilk rübündə problemli kreditlərin ümumi kredit portfelində payı 11,9% təşkil edib. Amma ikinci rübdə bu göstərici daha da azalıb və ilin sonunda 10 faizdən aşağıya düşəcək. Bunların əvəzində dövlət banklardan kredit faizlərini aşağı salmağı, real sektora daha çox vəsait ayırmağı gözləyir. Amma banklar hələ də bunun əksinə gedir. Məsələn, araşdırmalar göstərir ki, banklar tərəfindən əhaliyə verilən kreditlərin 43%-i yenə istehlak kreditlərinin payına düşür. Əhali tərəfindən həddindən artıq miqdarda istehlak kreditlərinin götürülməsi isə perspektivdə yenidən problemli kreditlərin miqdarını artıra bilər. İndi isə görünür ki, banklar uzunmüddətli fasilədən sonra insanları yenidən istehlak krediti almağa təşviq edir. Mütəxəssislər bankların atdığı bu addımın gələcəkdə problemli kreditlərin sayının artmasına səbəb ola biləcəyini deyir. Eyni zamanda real sektora da az vəsait ayrılır. Müqayisə üçün bildirək ki, iqtisadiyyatın energetika və kimya sahəsinə 3,4%, kənd təsərrüfatına 3,8%, tikinti və daşınmaz əmlaka 2,8%, sənaye və istehsala isə 5,9% kredit ayrılıb. Bu, istehlak kreditləri ilə müqayisədə çox azdır. Digər tərəfdən, banklar tərəfindən istehlak kreditləri üçün müəyyən edilmiş faiz dərəcələri yüksəkdir. Eyni zamanda görünən budur ki, banklar əhaliyə istehlak kreditlərinin verilməsinə üstünlük verdikləri və iş adamlarını maliyyə çatışmazlığında saxlamağa çalışdıqları zaman özləri də yenidən maliyyə risqləri ilə üzləşirlər. Bu meyl isə bank sisteminin sabitliyini təhdid edir. Ən azından, bu hal problemli kreditlərin miqdarının yenidən artmasına rəvac verə bilər. Digər tərəfdən o da aydın görünür ki, kommersiya bankları real sektoru maliyyələşdirməkdə də maraqlı görünmür. Halbuki, dövlətin banklardan gözlədiyi addım onların biznes kreditlərinə daha çox vəsait ayırmasıdır. Ancaq görünən odur ki, banklar dövlətin bu istəyindən nəticə çıxarmır. Bu səbəbdəndir ki, hələ də real sektora yönəldilən kreditlərin həcmi ümumi kredit portfelində aşağı olaraq qalmaqdadır. Yəni kommersiya bankları real sektoru maliyyələşdirməkdə maraqlı deyillər. Görünən budur ki, istehlak kreditləri üçün faiz dərəcələri yüksək olduğu üçün bunda banklar maraqlıdır. Həmçinin real sektorda girovlarla bağlı problemlər var, kommersiya bankları girovlar olmadan vəsait, kredit verməkdə maraqlı deyillər. Rayonlarda isə cəlb edilən girovun təxminən 60 faizi həcmində kredit verilir.

Daha böyük məbləğli kreditlər üçün daha bahalı girovların cəlb edilməsi tələb olunur. Bu da əksər hallarda real sektor üçün problemlər yaradır. Amma banklar hələ də bu həssas məqamları nəzərə almaq istəmir. Ekspertlərə görə, ölkədə verilən kreditlər istehsalı dəstəkləməyə qadir deyil.

***Nahid SALAYEV***

**Azərbaycanın bütöv olmasını istəyən çoxlu sayda təşkilat, siyasi lider var. Onlar hesab edirlər ki, bir vaxtlar iki böyük imperiyanın arasında bölünən vətənin nə vaxtsa bütövləşməsi haqdır. Bu yöndə fəaliyyət göstərənlər də az deyil. İranda yaşayan soydaşlarımız arasında da bu məfkurəni bölüşənlər çoxdur.**

# Çöhrəqanlı Azərbaycanın milli-mənəvi və dövlətçilik dəyərlərinə etikasız həmlələrə başlayıb

## *Samir Adıgözəlli: "Onun Qurban Məmmədova verdiyi son müsahibədən sonra həmin adama münasibətim kökündən dəyişdi"*



Teokratik İran rejiminin təsiri altında bu mübarizəni açıq və gizli aparanlar var. Belə adamlardan biri də hamımızın tanıdığı Mahmudəli Çöhrəqanlıdır. Bu şəxs İranda üzləşdiyi təqiblərdən sonra mühacirətə getməli oldu. Hazırda Cənubu Azərbaycan Milli Oyanış Hərəkatı adlı bir quruma rəhbərlik edir. 2000-ci illərin əvvəlində Çöhrəqanlı bir neçə gün Azərbaycanda oldu. Onun xalq tərəfindən necə coşqu ilə qarşılandığının, sevildiyinin şahidi olduq. Bəllidir ki, böyük ideyalar uğrunda mübarizə edən şəxslər heç vaxt cılız hisslərlə yaşamamalıdırlar. Onları böyük edən də məhz həmin amillər olur. Ancaq təəssüflə qeyd etməliyik ki, Çöhrəqanlının son davranışları və siyasi bəyanatlarında onun qulluq etdiyi ideyalarla uzlaşmayan detallar nəzərə çarpır. Məsələn, bu günlərdə sosial şəbəkələr üzərindən Qurban Məmmədovla canlı debata çıxan Çöhrəqanlı öz mübarizəsini, qulluq etdiyi ideologiyanı kənara qoyub, Azərbaycanın daxili siyasətinə aid lazımsız fikirlər səsləndirib. Hətta bir az da irəli gedərək, yaşına, tutduğu ictimai mövqeyinə uyğun olmayan tərzdə, etikadan kənar fikirlərlə mərhum prezident Heydər Əliyevi təhqir etməkdən belə çəkinməyib. Həmin verilişi izləyənlər əsl şok yaşayıblar. Amma Çöhrəqanlı yalnız bir yerdə deyil, bütün veriliş boyu əxlaqdan kənar fikirlər səsləndirdiyi üçün, onun səhvən hansısa fikri səsləndirdiyi qənaətinə gələ bilmərik. Çünki adam dəfələrlə eyni sözləri deyirsə, deməli, bunu düşünülmüş şəkildə edir. Bəllidir ki, bu cür lazımsız münasibətilə Çöhrəqanlı Azərbaycanda olan az-çox hörmətini də yerə vurmuş oldu. Çöhrəqanlıya belə addımlar yaraşırmı, Azərbaycanın milli-mənəvi dəyərlərini tapdalamaqla o nə etmək istəyir?

### *"Çöhrəqanlı çıxıb həmin çıxışına görə üzrxahlıq etməsə..."*

İctimai-Siyasi Proseslər və Beynəlxalq Araşdırmalar Mərkəzinin (İSPBAM) sədri Samir Adıgözəlli "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Çöhrəqanlının həmin çıxışını izləyib və bundan dərin təəccüb keçirib: "Mən gənc yaşlarımdan milli mübarizənin içərisindəyəm. Bütöv Azərbaycan amalı uğrunda mübarizə aparan hər kəsə dərin saygım və hörmətim var. Belə şəxslərdən biri də Mahmudəli Çöhrəqanlı idi. Ancaq onun Qurban Məmmədova verdiyi son müsahibədən sonra həmin adama münasibətim kökündən dəyişdi. Yaşına, tutduğu mövqeyə uyğun olmayan tərzdə çıxışlar etdi. Azərbaycan xalqının milli dəyərlərini, adət-ənənəsini təhqir etdi. Rəhmətə gedən böyük siyasi lideri ən pis formada təhqirlərə məruz qoydu. Bununla da, bir növ, Qurban Məmmədov kimi adamın səviyyəsinə enmiş oldu. Sizi əmin edirəm ki, Çöhrəqanlı həmin çıxışı ilə Azərbaycanda olan bütün hörmətinin üstündən xətt çəkdi. Bütöv Azərbaycan kimi böyük amal uğrunda mübarizə aparan bir adam yəni bu səviyyəyə enə bilərmi? Mən onun çıxışına bir neçə dəfə təkrar baxdım.

Çünki inanmırdım ki, həmin fikirləri səsləndirən Çöhrəqanlıdır. Hesab edirəm ki, həmin müqəddəs məfkurəyə xidmət edən bütün siyasilər Çöhrəqanlıya cavab verməlidirlər. Bəyəm, bütöv Azərbaycan uğrunda mübarizənin yolu mərhum Heydər Əliyevi təhqir etməkdən keçir? Çöhrəqanlı çıxıb həmin çıxışına görə üzrxahlıq etməsə, sizi əmin edirəm ki, itirilən reputasiyasını bərpa edə bilməyəcək".

***Məhəmmədəli QƏRİBLİ***

**İqtisadi burulğanda çabalayan Ermənistan öz "inkişafı" ilə bağlı əsatirlər uydurmaqda davam edir. İşğalçı ölkənin mətbuatı indi də güya milli valyutalarının gücləndiyinə dair yalnış rəy formalaşdırmağa girişib. Yazırlar ki, ötən həftə ərzində keçmiş SSRİ-ni təmsil edən ölkələrin valyutasında dollara nisbətdə ucuzlaşma qeydə alınıb.**

# Ermənistanda gülməli "möcüzə" - iqtisadiyyatı çökmüş ölkənin pulu güclü valyutalar arasındadır?

## *Günel Fərhadqızı: "Belə iqtisadi göstəricilərə malik olan ölkənin milli valyutasının gücləndiyini iddia etmək absurddan başqa nəsə deyil"*



Bu xüsusda qeyd edirlər ki, güya Ermənistanın milli valyutası olan dram 0,09 faiz dəyər qazanıb. Həmin məlumatda qeyd edilir ki, Orta Asiya ölkələrinin hamısının milli valyutasında ucuzlaşma qeydə alınıb. İqtisadiyyatı tənəzzülə uğrayan ölkənin milli valyutasının dəyərə mindiyini elan etməsi təzad sayılırmı?

İqtisadçı Günel Fərhadqızı qəzetimizə bildirdi ki, Ermənistanın bir tərəfdən zəif təbii, mineral və coğrafi resurslara malik olması, digər tərəfdən apardığı işğalçılıq siyasəti və ərazi iddiaları nəticəsində özünü qonşu ölkələrdən təcrid etməsi onu çətin vəziyyətə salıb: " Milli valyutanın dəyərə minməsi üçün iqtisadiyyatın inkişafı lazımdır. Zəngin enerji resursları və dənizə çıxışı olmayan Ermənistan coğrafi baxımdan da əlverişsiz vəziyyətdədir. Ölkənin Azərbaycan və Türkiyə ilə olan sərhədlərinin uzunluğu toplam sərhədlərinin 85%-ni təşkil etməkdədir. Azərbaycan və Türkiyə ilə sərhədləri Dağlıq Qarabağın işğalı səbəbilə Azərbaycan və Ermənistan arasında davam edən münaqişənin nəticəsi olaraq bağlıdır. Dənizə çıxışı olmayan ölkənin coğrafi xüsusiyyətlərindən dolayı ticari əlaqələri zəifdir. Buna əlavə olaraq, İran və qismən də Gürcüstan xaricində bütün qonşuları ilə problem yaşamaqdadır, bu da təbii olaraq sərhəd ticarətinə mənfi yöndə təsir edir. Bu böhranlı vəziyyətdə onun sağ qalmasında, heç şübhəsiz, diasporanın rolu çox əhəmiyyətlidir. Yəni ölkə, demək olar ki, ianələr hesabına yaşayır. Bu gün dünya iqtisadiyyatında baş verən proseslər Ermənistanda böyük narahatlıqla izlənməkdədir. Bunun işğalçı ölkəyə hansı təsirlər göstərəcəyi geniş müzakirə predmetinə çevrilməkdədir. Səbəbi isə Ermənistanın xarici yardımlardan asılı dövlət olması və kənardan kömək olmadan mövcudluğunu davam etdirməsinin mümkünsüzlüyüdür. Çünki Qərb ölkələrinin üzləşdiyi iqtisadi problemlər və yaşanan tənəzzül Ermənistana həmin dövlətlər tərəfindən edilən yardımların kəsilməsi deməkdir. Belə bir vəziyyətdə Ermənistanda əhalinin sosial durumu dözülməz bir həddə çatmaqdadır. Vəziyyətdən yeganə çıxış yolu kimi Ermənistan əhalisi əvvəlki qaydada ölkədən birdəfəlik miqrasiya edərək yaşamaq üçün başqa ölkələrə üz tutur. Bu, Ermənistan əhalisinin haqlı narazılığının daha da artmasına, etiraz aksiyalarının geniş vüsət almasına səbəb olur. Erməni ekspertləri mətbuata verdikləri açıqlamalarında qeyd edirlər ki, bu gün vergi sahəsində də vəziyyət çox bərbaddır. Vergi yığımlarının miqdarının aşağı olmasının əsas səbəbi ölkədə əksər biznes, ticarət və digər kommersiya obyektlərinin məmurlara məxsus olmasıdır. Müxtəlif qiymətləndirmələrə görə, Ermənistanda gizli iqtisadiyyatın xüsusi çəkisi ümumi daxili məhsulun ən azı 70 faizinə çatır. Hökumətin buna qarşı apardığı mübarizə isə yalnız kağız üzərində mövcuddur. Sadə əhali hər keçən gün daha acınacaqlı vəziyyətə düşməkdə, gündəlik maddi ehtiyaclarının qarşılanmasında belə ciddi çətinliklər yaşamaqda, az qala hər gün qiymətlərin qalxmasından əziyyət çəkməkdədir.

Ermənistanın Statistika Xidmətinin məlumatına görə, sənaye və kənd təsərrüfatı sahələri tamamilə çöküb. İqtisadi geriləmə biznes mühitinə də zərər vurub. Əhalinin 90 faizinin istehlak həcmi əhəmiyyətli dərəcədə azalıb. Hər 10 nəfərdən doqquzu pis vəziyyətdə yaşamağa başlayıb. Belə iqtisadi göstəricilərə malik olan ölkənin milli valyutasının gücləndiyini iddia etmək, absurddan başqa nəsə deyil".

***Məhəmmədəli QƏRİBLİ***

**Yeni ixrac kəmərlərinin istifadəyə verilməsi fonunda Azərbaycanın enerji sektorunda təbii qazın xüsusi çəkisi tədricən artmağa başlayır. Məsələn, TANAP kəmərinin işə düşməsi ilə Azərbaycan qaz ixracını əhəmiyyətli dərəcədə artırıb. Təkcə may ayında Türkiyə Azərbaycandan 770 milyon kubmetr təbii qaz idxal edib.**

# Azərbaycan qazının Avropa üçün önəmi artır - "Şimal axını" ətrafında intriqa qızışır...




Türkiyənin Enerji Bazarını Tənzimləmə Təşkilatı bildirir ki, Azərbaycan mayda Türkiyənin ən çox qaz idxal etdiyi ölkələr sırasında Rusiyadan sonra ikinci olub. Bu ilin ilk 5 ayında qardaş ölkənin Azərbaycandan qaz idxalının həcmi 3 milyard 758 milyon kubmetr təşkil edib. Qeyd edək ki, keçən il Türkiyə Azərbaycandan 7 milyard 527 milyon kubmetr təbii qaz idxal etmişdi. Cari ildə bu rəqəmin daha da artması gözlənir. Bunlar eyni zamanda Azərbaycana valyuta axınında təbii qazın rolunu da nəzərəçarpacaq dərəcədə artırır.

Beynəlxalq Valyuta Fondu da bildirir ki, təbii qaz hesabına Azərbaycanın dünya enerji bazarında rolu daha da artır. Fondun Azərbaycandakı nümayəndəliyinin rəhbəri Natalya Tamirisanın sözlərinə görə, "Cənub Qaz Dəhlizi"nin işə başlaması ilə əlaqədar bu il karbohidrogenlərin hasilatı artacaq. Qaz İxracatçısı Ölkələri Forumu isə Azərbaycanın Avropa üçün enerji sahəsində oynadığı rolun daha da yüksələcəyini bildirir. Özü də bunlar o fonda baş verir ki, Avropanın təbii qaza tələbi artır. Qaz İxracatçısı Ölkələri Forumu da bəyan edir ki, qısamüddətli perspektivdə Avropaya boru kəmərləri ilə nəql edilən qazın həcmi artacaq. Yeni qaz kəmərlərinin istismara verilməsi Avropa ölkələrinə əlavə 102,5 milyard kubmetr qaz əldə eləməyə imkan verəcək. Bu fonda xüsusi qeyd edilir ki, 2020-ci ildə "Cənub Qaz Dəhlizi"nin ikinci mərhələsi olan TAP-ın istifadəyə verilməsindən sonra Azərbaycandan Avropaya boru kəmərləri ilə ixrac edilən qazın həcmi 16 milyard kubmetr artacaq. Məlumata əsasən, bundan əlavə, 2019-2020-ci illərdə Avropaya nəql edəcək iki qaz kəmərinin istifadəyə verilməsi planlaşdırılır. Bunların arasında "Şimal axını-2" və "Türk axını" kəmərləri var. Amma o da məlumdur ki, "Şimal axını-2" ilə bağlı mübahisələr davam edir. Digər tərəfdən məlumdur ki, ABŞ "Şimal axını 2"-yə qarşı ən sərt sanksiyalara başlayır. Konqresin saytında Rusiyaya boru kəmərlərinin tikintisi üçün gəmilərin verilməsinə qarşı sanksiyaların tətbiqi ilə bağlı yeni qanun layihəsində deyilir ki, ABŞ-ın Avropadakı müttəfiqlərinin enerji təhlükəsizliyinin təmini məsələsilə bağlı strategiyasına Rusiyanın Avropadakı enerji dominantlığına mübarizə də daxil edilməlidir. ABŞ-ın energetika naziri Rik Perri isə bildirib ki, Rusiyanın "Şimal axını-2" və "Türk axını" qaz boru kəmərləri zərərli təsirlərin vasitəsidir: "Rusiya tez-tez Avropa və ABŞ-a qarşı zərərli taktikalarından istifadə edərək birliyimizə zərər verir. Rusiya enerji bazarı üzərindəki təsirindən yararlanaraq siyasi hədəflərini gücləndirməyə davam edir. Qaz kəmərləri də bu taktikaya xidmət edir".

ABŞ Dövlət Departamentinin rəhbəri Mayk Pompeo isə "Şimal axını-2" kəmərinin Avropaya təzyiq rıçağı olacağını bildirib: "Rusiya "Şimal axını-2"ni Avropaya qarşı təzyiq rıçağı kimi istifadə etmək istəyir. Biz bu layihənin reallaşdırılmasına imkan verməməliyik". Avropada da məsələ ətrafında ikitirəlik hökm sürür. Məsələn, Polşa baş naziri Mateuş Morvetski, ölkəsi ilə Almaniyanın xoş münasibətlərinə rəğmən, Varşavanın "Şimal axını 2" ilə bağlı Berlinin mövqeyini bölüşmədiyini bildirib: "Rus qazına görə ödəniş Putinə silaha görə edilən ödənişə bərabərdir. Biz bu məsələdə Berlinlə razılaşmırıq". Amma Azərbaycan qazının Avropaya mümkün qədər tez və böyük həcmdə çatdırılması hazırda həm ABŞ-ın, həm də Avropa ölkələrinin xüsusi marağındadır. Artıq bu il iyulun 1-dən Avropaya qazın nəqli üçün tamamilə hazır vəziyyətə gətirilən TANAP tarixə eyni zamanda Türkiyə, Yaxın Şərq və Avropanın ən uzun və ən geniş diametrli təbii qaz xətti kimi düşüb. Türkiyə-Yunanıstan sərhədində TANAP-la birləşəcək TAP boru kəmərində aparılan işlər tamamlandıqdan sonra Azərbaycan qazı gələn ildən etibarən Avropa bazarlarına nəql olunacaq.

TAP AG şirkətinin kommunikasiya rəhbəri Lisa Givert bildirir ki, TAP-ın inşası artıq son mərhələdədir. Onun sözlərinə görə, Azərbaycan təbii qazının Avropaya nəqlini nəzərdə tutan TAP kəmərinin inşaası çərçivəsində İtaliyada da boruların tikintisinə başlanıb: "İtaliyada, Melendugno şəhərindəki 1,5 kilometrlik mikrotunelin inşası aprelin sonunda turist fəaliyyətləri və sahilboyu ətraf mühitə heç bir təsir və ya müdaxilə olmadan tamamlanıb. Boru kəmərinin İtaliya hissəsinin və qəbul terminalının tikintisinin tamamlanması üzrə işlər davam edir". O əlavə edib ki, iyunun sonuna TAP layihəsi üzrə işlərin - mühəndis, təchizat və tikinti işləri də daxil olmaqla - 88,5 faizi icra edilib. Bundan başqa, TAP-ın quru hissəsinin inşası çərçivəsində Yunanıstan, Albaniya və İtaliya marşrutunda boruların 99 faizi torpağa basdırılıb. Həmçinin 3 ölkə üzrə marşrutun 95 faizindən çoxunda torpaq örtüyü bərpa edilib. Bundan başqa, TAP konsorsiumu təbii qaz tədarükçülərinin maraqlarını ifadə etməyə imkan verəcək bazar sınaqlarına da başlayıb. Məqsəd sonrakı mərhələdə TAP-ın genişləndirilməsi imkanlarını araşdırmaqdır. Boru kəməri Avropanın üç ölkəsinin ərazisindən - Yunanıstan, Albaniya və İtaliyadan keçir.

TAP-ın ilkin ötürücülük qabiliyyəti ildə 10 milyard kubmetr olacaq və bu həcmin gələcəkdə 20 milyard kubmetrədək artırılması nəzərdə tutulur. Layihə ümumilikdə Azərbaycan qazının İtaliya, Almaniya, Fransa, Böyük Britaniya, İsveçrə və Avstriya kimi böyük Avropa bazarlarına çatdırılması üçün böyük imkanlar yaradır.

***Tahir TAĞIYEV***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Cəbhə təxribatları Ermənistana baha başa gəlir

**Dağlıq Qarabağ münaqişəsi üzrə sülh danışıqlarının nəticəsi olmadığı bir vaxtda cəbhədə düşmən tərəfindən atəşkəsin pozulması, təxribatların törədilməsi yenidən intensiv hal almaqdadır. Məsələn, elə bu günlərdə düşmən tərəfi Azərbaycan-Ermənistan dövlət sərhədində təmas xəttində yerləşən Dövlət Sərhəd Xidmətinin sərhəd döyüş mövqelərinə qarşı təxribat törədib.**

Döyüş mövqelərimiz və arxa istiqamətdə hərəkətdə olan hərbi nəqliyyat vasitələrimiz düşmən tərəfindən atəşə tutulub. Düşmən snayperləri tərəfindən açılmış güllələr üzərində "Hərbi tibbi yardım" sözləri yazılmış və Qızıl Aypara nişanının təsviri olan "UAZ" markalı avtomobilə dəyib. Qeyd edək ki, "hərbi tibbi yardım" avtomobillərinin atəşə tutulması birbaşa Cenevrə Konvensiyasının pozulmasıdır. Amma erməni tərəfi bunu yenə də nəzərə almır. Bu fonda törədilən təxribatlar isə erməni tərəfinə baha başa gəlir. Belə ki, atəşkəsin pozulmasına cavab olaraq erməni hərbçisi Arman Bulqadaryan Azərbaycan ordusu tərəfindən məhv edilib. Bunun ardınca isə daha bir erməni hərbçi Vladimir Osipyan yaralanıb.

Azərbaycan tərəfi bütün bu baş verənlərə görə məsuliyyətin birmənalı şəkildə təxribatlara əl atan ermənilərin üzərinə düşdüyünü bildirir. Xarici İşlər Nazirliyi qeyd edilən fonda xatırladır ki, bu gün regionda yaşanan gərginliyin, ümumiyyətlə Ermənistan və Azərbaycan arasında "cəbhə bölgəsi"nin mövcud olmasının yeganə səbəbkarı Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərini, yəni Dağlıq Qarabağ və ətraf yeddi rayonu hərbi işğal edən Ermənistandır: "Bu məsələdə müxtəlif bəhanələrlə digər günahkarı axtarmaq özü-özünü aldatmaqdan başqa bir şey deyil. Çünki beynəlxalq ictimaiyyətin, o cümlədən ATƏT-in Minsk Qrupunun üç üzv ölkəsinin daimi üzvü olduğu BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi qətnamələr və digər təşkilatların qərarları göz qabağındadır. Nə qədər ki, Ermənistan Respublikasının silahlı qüvvələri Azərbaycan Respublikasının beynəlxalq səviyyədə tanınmış torpaqlarında mövcudluğunu saxlayır, əfsuslar olsun ki, bu kimi insidentlərin başverməehtimalı yüksəkdir. Bu kimi halların qarşısının alınmasının yeganə yolu Ermənistanın işğalçı qüvvələrinin Azərbaycan ərazilərindən çıxarılmasının təmin edilməsidir. Ermənistan XİN-i bir müddət öncə "bir əllə danışıqlar aparıb, digər əllə atəş açmağın" düzgün olmadığını iddia etdiyi halda, bu bəyanatdan sonra Azərbaycanın Qazax rayonu istiqamətində sərhəd məntəqəsinin mövqelərini atəşə tutaraq, Azərbaycan Dövlət Sərhəd Xidmətinin əsgərini yaralamışdı. Görünür, bir əli ilə Azərbaycan ərazilərini hərbi işğal altında saxlayan Ermənistan digər əli ilə danışıqlar aparmamaq üçün də bəhanələr axtarışındadır. Azərbaycan tərəfi torpaqlarının işğal olunması faktı ilə heç zaman barışmayacaq və bunu Ermənistan tərəfinin çoxdan anlaması gərəkdir. Yalnız Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazilərindən çıxarılması və bu ərazilərdən didərgin salınmış azərbaycanlıların öz evlərinə geri qayıtması bölgədə gərginliyin aradan qaldırılmasını, dayanıqlı sülh və əminamanlığı, rifahın bərpa olunmasını təmin edəcək".

İndilikdə isə görünən budur ki, cəbhədə üzləşdiyi itkilərə rəğmən, düşmən təxribatlara son qoymağa tələsmir. Əksinə, erməni mediasının yazdıqlarından belə bəlli olur ki, bu ölkə daxilində artan gərginlik fonunda cəbhədə vəziyyətin kəskinləşməsi gözlənilir. "İrates" qəzeti bunu baş nazir Nikol Paşinyandan artan narazılıqla əlaqələndirir. Qəzet yazır ki, hazırda Ermənistanda hakimiyyətin hərəkətlərindən ictimaiyyətin məyusluğu getdikcə daha da dərinləşir: "Hakimiyyət dəyişikliyinin ölkədə mövcud olan problemləri nə dərəcədə həll etmədiyini nəzərə alsaq, bu təsadüfi deyil. Bir anlığa insanlar Nikol Paşinyanın gələcəyini və onlara qayğı göstərəcəyini ümid edirdilər. Paşinyan gəldi, lakin qayğılar insanların qapılarını döyməkdə davam edir. Zaman keçir, ölkədəki sosial vəziyyət isə dəyişmir. İndi Paşinyan onu hakimiyyətə gətirən və ictimai qurumların qapılarını təpiklə açmaq hüququna sahib olan insanları eşitmək belə istəmir. Baş nazir vəzifəsində Paşinyan Ermənistan vətəndaşı ilə heç də keçmişdəkilərdən geri qalmayan hörmətsizliklə danışır. Bu vəziyyətdə ondan sosial narazılıq artır və iqtisadi vədlərin yerinə yetrilməməsi Paşinyan üçün müsbət heç nə vəd etmir. Məhz bu fonda cəbhədə gərginliyin artması Paşinyan üçün ictimaiyyətin diqqətini başqa səmtə yönəltmək baxımından vacib görünə bilər. Bu taktikadan Paşinyandan əvvəlki hakimiyyət də az istifadə etməyib". Həqiqətən də Ermənistan daxilində baş verənlər burada sosial-iqtisadi problemlərin daha da dərinləşdiyini üzə çıxarır. Bunun isə tezliklə hakimiyyətə qarşı kütləvi aksiyalara çevriləcəyini elə bu günlərdə İcevanda, Gümrüdə baş verənlər əyani şəkildə təsdiqlədi. Məhz belə vəziyyətdə cəbhədə təxribatların artmasının Ermənistan daxilində vəziyyətdən qaynaqlanmasını artıq erməni mediası özü də etiraf edir. Ehtiyatda olan polkovnik Şair Ramaldanov da məsələyə elə bu prizmadan yanaşır. Ekspert vurğulayır ki, Ermənistan-Azərbaycan sərhədində atəşkəsin pozulması Ermənistan cəmiyyətinin diqqətini daxili problemlərdən yayındırmaq məqsədi daşıyır. O, sərhəddə atəşkəsin pozulmasının və nəticədə Ermənistan tərəfinin itki verməsinin təbii proses olduğunu bildirib: "Ermənistan-Azərbaycan sərhədində atəşkəsin pozulması bu vaxta qədər müşahidə edilən hadisədir. Ermənilər sərhəddə atəşkəsi pozmaqla həmişəki məqsədlərinə xidmət edirlər. Onlar daima cəbhə bölgəsində gərginlik yaratmağa və danışıqlar prosesinə mane olmağa çalışırlar. Çünki danışıqlar prosesi ilə bağlı son zamanlar beynəlxalq təşkilatlardan Ermənistana müraciətlərin və təzyiqlərin sayı artıb. Atəşkəs yalnız Ermənistan tərəfindən pozulur. Son zamanlar Ermənistan tərəfinin hərbi təcili tibbi yardım maşınlarımızı da atəşə tutmasının şahidi oluruq. Azərbaycan tərəfi ermənilərin cavab atəşi ilə susdurmaqla məşğuldur. Bu da, təbii olaraq, Ermənistan tərəfinin itki verməsi ilə nəticələnir. Bütün bunların hamısı təbii prosesdir və biz torpaqlarımızı azad edib ərazi bütövlüyümüzü bərpa edənə qədər davam edəcək".

Belə vəziyyətdə erməni tərəfini narahat edən əsas məqamlardan biri budur ki, pozulan atəşkəs Ermənistan ordusunun daha çox itki verməsi ilə nəticələnir. Eyni zamanda bu proseslər o zaman cərəyan edir ki, ötən dövrlərə nisbətən erməni ordusu getdikcə daha zəif hala gəlir. Helsinki Vətəndaşlıq Assambleyasının Vanadzor Ofisinin rəhbəri, hüquq müdafiəçisi Artur Sakunts da bunu təsdiqləyir. O xatırladır ki, təkcə rəsmi rəqəmlərə əsasən, Ermənistan Silahlı Qüvvələrində və Qarabağdakı "hərbi birləşmədə" 2018-ci il ərzində 63 hərbi qulluqçunun ölüm faktı qeydə alınıb. Bunlardan 27-si müddətli xidmət hərbi qulluqçusu, 23-ü müqaviləli hərbi qulluqçu, 11-i zabit, 2-si isə gizirdir: "Özü də keçən il atəşkəs rejiminin pozulması nəticəsində ölümlərin sayı azalıb. Lakin dinc şəraitdə ölüm sayının səviyyəsi ondan xəbər verir ki, Silahlı Qüvvələrdə nizam-intizam, şəxsi heyətlə aparılan iş, təminat, həmçinin mümkün korrupsiya risqlərinin aşağı salınması istiqamətində həyata keçirilən fəaliyyət hələ də, təəssüf ki, qənaətbəxş səviyyədə deyil. Son zamanlar Nikol Paşinyan orduda dəyişikliklər, nəsil dəyişimi haqqında danışır. Amma mən deyə bilmərəm ki, hansı dəyişiklikləri həyata keçirirlər. Hərbi nizam-intizamın gücləndirilməsi, şəxsi heyətlə aparılan iş istiqamətində dəyişikliklər görmürəm. Bu barədə məlumat yoxdur. Silahlı Qüvvələrdə şəxsi heyətlə aparılan işi səmərəli vəziyyətə gətirib çatdırmaq lazımdır. Məsələn, orduya psixoloq zabitlər cəlb edilməlidir. Bu barədə illərdir danışılsa da, heç bir iş görülmür. Mənim üçün kilsə xadimlərinin orduya cəlb edilməsi anlaşılmazdır. Bu, orduya heç bir fayda vermir. Bəyan edilir ki, din xadimlərinin orduya cəlb edilməsi səmərəlidir. Lakin bu faktiki olaraq əks olunmur.

Təəssüf ki, zabitlərin ordudan çıxma halları artıb. Bu o deməkdir ki, hərbi xidməti peşə olaraq seçmiş insanlar müəyyən vaxtdan sonra məyus olur və sonrakı xidmətdən imtina edir. Bundan başqa, deyilənlər müdafiə sahəsinə də aid olmalıdır. Müəyyən vaxt ərzində korrupsiya sxemləri içərisində batmış insanların sonrakı hərbi xidməti ümumiyyətlə xidmətin keyfiyyətinə kifayət qədər ciddi mənfi təsir göstərir. Kompleks yanaşma lazımdır, lakin biz bunu görmürük. Məhz belə vəziyyət ordunun döyüş qabiliyyətinə mənfi təsir edir və rəqib də baş verənləri dəyərləndirir. Bu mənada aydındır ki, indiki şəraitdə Qarabağda hərbi əməliyyatların bərpası Ermənistan üçün yaxşı heç nə vəd etmir. Hakimiyyət mütləq şəkildə bunu nəzərə almalıdır".

Müdafiə Nazirliyinin İnsan Haqları Mərkəzinin rəisi, polkovnik Alik Avetisyan da orduda vəziyyətin yaxşı olmadığını bildirir. Avetisyan vurğulayır ki, Ermənistan Müdafiə Nazirliyinin "Qaynar xətti"nə zəng edən valideynlərin çoxu övladlarının kifayət qədər yaxşı yoxlanılmamasından şikayət edirlər. Polkovnik vətəndaşların yoxlamalar zamanı çağırışçılarda olan əsl xəstəliklər yerinə daha yüngül xəstəliklərin göstərilməsindən şikayət etdiklərini bildirib. O, cari ildə əsgər valideynlərindən 18 min şikayət zəngi aldıqlarını da deyib. Erməni mediası isə bu açıqlamalar fonunda yazır ki, ordu xəstələrdən ibarətdir və belə ordu ilə Qarabağ uğrunda savaş aparılması sadəcə istehza doğurur. Məhz bu səbəbdən hesab edilir ki, cəbhə təxribatları Ermənistana getdikcə daha baha başa gəlir. Əslində, bu xüsusda Azərbaycan da Ermənistana çoxsaylı xəbərdarlıqlar edib. Düşmənin isə bundan lazımi nəticə çıxarmaması cəbhədə onun itkilərinin sayını artırır.

*Tahir TAĞIYEV*

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**



**ABŞ Prezidenti Donald Tramp nüvə anlaşmasından geri çəkilməsi, ardınca Fars körfəzində üz-üzə gəldikləri İranla bağlı sosial media hesabında yeni açıqlama verib.**

# Trampdan yeni İran mesajı - müharibədə qalib gəlməyiblər, danışıqlarda isə heç vaxt məğlub olmayıblar

*ABŞ Prezidenti Rusiya və İran məsələsində fikir ayrılığı yaşadığı kəşfiyyat şefini istefaya göndərir*

Baki-xeber.com xarici mediaya istinadən xəbər verir ki, Tramp mesajında İranın heç vaxt müharibədə qalib gəlmədiyini yazıb.

"Unutmayın, İran heç vaxt müharibədə qalib gəlməyib. Lakin danışıqlarda da heç vaxt məğlub olmayıb" - Tramp bildirib. Bu arada, Tramp Rusiya və İran məsələsində fikir ayrılığı yaşadığı Milli Kəşfiyyat Direktoru Den Koutsun gələn ay istefaya gedəcəyini bildirib. Bu vəzifədə olduğu müddətdə Kouts və Ağ Ev arasında kəşfiyyat siyasəti ilə bağlı kəskin fikir ayrılıqları müşahidə edilirdi. ABŞ-ın Milli Kəşfiyyat Agentliyinin direktoru vəzifəsinə 2017-ci ilin mart ayından başlayan Den Koutsla Tramp arasında bir sıra məsələlər, o cümlədən, Birləşmiş Ştatların Rusiya, Şimali Koreyanın nüvə proqramı və İranın 2015-ci il nüvə razılaşmasının şərtlərinə əməl edib-etmədiyi kimi kəşfiyyat siyasətinə dair önəmli məsələlərdə fikir ayrılıqları mövcud idi.

Den Kouts istefa məktubunu Prezident Trampa bazar günü təqdim edib. Tramp isə Twitter səhifəsində yazdığı mesajında Koutsun avqustun 15-də vəzifəsini tərk edəcəyini elan edib və ona göstərdiyi xidmətə görə təşəkkürünü bildirib. O, Milli Kəşfiyyat Agentliyinin direktoru vəzifəsinə Texas ştatından respublikaçı konqresmen və Trampa loyal olan Con Ratkliffin nominasiyasını irəli sürəcəyini deyib.

Qeyd edək ki, ABŞ dövlət katibi Mayk Pompeo bazar ertəsi Tehrana gedib danışıqlar təklif etdiyini, lakin İranın buna razılıq vermədiyini açıqlayıb.

Onu da xatırladaq ki, Tramp 2018-ci ildə İranla dünya qüdrətləri arasında Tehranın nüvə proqramının məhdudlaşdırılması qarşılığında iqtisadi sanksiyaların aradan qaldırılmasını nəzərdə tutan razılaşmadan çıxıb.



**"Ermənistan rəhbərliyi hakimiyyətdə çox qalmayacaq və yenidən seçilmə perspektivinə malik deyil". Sputnik Ermənistan xəbər verir ki, ölkənin sabiq prezidenti Robert Koçaryan**

# Köçəryan Paşinyana vaxt verdi: "Bu hakimiyyət çox qalmayacaq"

**bunu xarici KİV-ə müsahibəsində bildirib.**

O, əminliyini ifadə edib ki, hakimiyyət məsələsi istənilən halda küçədə - növbədənkənar parlament seçkilərində həll olunacaq.

"Bu cür idarəetmə keyfiyyəti ilə bu rəhbərlik hakimiyyətdə çox qalmayacaq və yenidən seçilmə perspektivinə malik deyil. Seçici həmin vaxt populistlərdən təngə gələcək və öz seçimində daha diqqətli olacaq" - deyə Köçəryan qeyd edib.

Sabiq prezident əmindir ki, müxalifət meydanında konsolidasiya üçün münbit sahə var. Lakin Koçaryan dərhal vahid müxalifət mərkəzinin yaranacağını düşünmür. Onun fikrincə, müxtəlif cazibə mərkəzləri yaranacaq, lakin onlar arasında aktiv olaraq qarşılıqlı əlaqələr yaranacaq: "Mən bu proseslərdə önəmli halqa olacam, lakin tək olmayacam. Ölkəyə sağlam güclərin geniş konsolidasiyası lazımdır. Bu proses isə şübhəsiz parlament müxalifətinin radiakallaşması ilə nəticələnəcək. Əks halda, o öz seçicisini itirəcək".

Köçəryanın fikrincə, payızda müxalifətdə konsolidasiya və tərəfdaşlıq formalaşması prosesi yekunlaşacaq, siyasi mübarizə isə daha sistemli və geniş xarakter alacaq.



# Britaniyaya "Brexit" xəbərdarlığı... "Böyük ehtimalla, mətbəxi itirəcəksiniz, ancaq yataq otağını xilas edə bilərsiniz"

**Böyük Britaniya Sənaye Konfederasiyası (CBI) ölkənin 31 oktyabrda razılaşma olmadan Avropa Birliyini tərk etməyə hazır olmadığını bəyan edib.**

Baki-xeber.com xarici mediaya istinadən xəbər verir ki, bu barədə CBI-nin "Razılaşmasız ayrılıqla bağlı hazırlıqlar" başlıqlı hesabatında deyilir. Hesabatda, Britaniyada bu günə qədər ola biləcək razılaşmasız hazırlıqların müsbət qarşılanmasına baxmayaraq, ölkənin AB-dən razılaşmasız ayrılmağa hələ tam hazır olmadığı qeyd edilir. Ölkədəki böyük şirkətlərin ciddi problemlərlə qarşılaşa biləcəyi deyilən hesabatında qeyd olunur ki, iri maliyyə şirkətləri mümkün razılaşmasız ayrılıq üçün fövqəladə planlar hazırlayırlar, kiçik şirkətlərin isə bu ssenariyə hazırlıqları çox aşağı səviyyədədir. BBC-yə açıqlama verən CBI-nin nümayəndəsi Coş Hardinin fikrincə, iqtisadiyyatı idarə etmək üçün Britaniyanın AB ilə anlaşması vacibdir: "Fırtınanın gəldiyini görsəniz qapınıza qum torbası yığacaqsız. Ancaq bu, fırtınanın gətirdiyi seli dayandıra biləcəyiniz demək deyil. Böyük ehtimalla, mətbəxi itirəcəksiniz, ancaq yataq otağını xilas edə bilərsiniz".



**Braziliyada həbsxanada cinayətkar qrupların saatlarla davan edən toqquşmasında ən az 57 məhbus ölüb. Baki-xeber.com xarici**

# Braziliyada kriminal qrupların həbsxanada saatlarla davam edən toqquşmasında ən az 57 məhbus öldürüldü

**mediaya istinadən xəbər verir ki, hadisə ölkənin Para əyalətindəki Altamira həbsxanasında baş verib.**

Altamira həbsxanasının bir hissədə saxlanan dəstə üzvləri kompleksin digər hissəsindəki rəqib dəstəyə hücum edib. Rəsmilər ölənlərdən 16-nın başının kəsildiyini, qalan ölümlərin çoxunun isə həbsxanadakı yanğında zəhərlənmə nəticəsində baş verdiyini açıqlayıb.

Girov götürülən iki həbsxana işçisi isə sonradan sərbəst buraxılıb.

Həbsxana rəsmiləri hadisə baş verənə qədər belə bir hazırlığın olduğuna dair heç bir məlumatın olmadığını bildirir.

Qeyd edək ki, 200 nəfərlik həbsxanada 309 məhkum saxlanır, bununla belə, hakimiyyət həbsxanada sıxlıq olması ilə bağlı tənqidləri qəbul etmir.

Braziliya dünyada məhkumların sayının çox olduğu üçüncü ölkədir. Ölkədə 700 mindən çox məhbus var. Digər tərəfdən, ölkədə məhkumların çox olduğu həbsxanaların kriminal qruplar tərəfindən idarə olunduğuna dair iddialar var.

Son illər həbsxana iğtişaşları və kriminal qrupların qarşıdurmasında yüzlərlə adam öldürülüb.

**Yay aylarında insanlar ya ölkə daxilində istirahət etməyə üstünlük verir, ya da ölkədən kənara çıxırlar. Əksər hallarda istirahət etmək istəyən vətəndaşlar turpaketlərdən yararlanmaq istəyirlər. Turizm şirkətləri Azərbaycanın müxtəlif bölgələrinə, o cümlədən, qonşu ölkələrə rahat və ucuz qiymətə, əyləncəli turlar təklif edirlər.**

# Türkiyə və Gürcüstana bir turpaketi bir neçə müştəriyə satan dələduz şirkətlər peyda olub...



## *Elçin Rüstəmov: "Vətəndaşları aldadan turizm şirkətləri əsasən internet üzərindən fəaliyyət göstərirlər"*

Turpaketlərdə qeyd olunur ki, səyahət etmək üçün ödəniləcək məbləğə yol və yemək xərcləri, müxtəlif oyunlar, fotosessiya daxildir. Lakin bu turlara gedənlərin çoxu narazı qayıdır. İstirahət zamanı ac qaldıqlarını, gəzintinin maraqsız olduğunu deyirlər.

Ancaq son zamanlar edilən şikayətlər tək ac qalmaq, gəzintinin maraqsız olması ilə bağlı deyil. Belə ki, qonşu Türkiyə və ya Gürcüstanda istirahət etmək üçün turpaket alan vətəndaş aldadıldığının şahidi olur.

Cavid Quliyev adlı şəxs mövsümi fəaliyyət göstərən turizm şirkətlərinin biri tərəfindən aldadılanlardan biridir. O qeyd edir ki, getdiyi otel otağının başqası tərəfindən bron edildiyini görüb. Geri döndükdə isə xidmətindən istifadə etdiyi turizm şirkətinin ofisini bağlı görüb, işçiləri ilə də əlaqə saxlaya bilməyib.

Turizm sahəsi üzrə ekspert Elçin Rüstəmov bildirdi ki, vətəndaşların turpaketlər tərəfindən aldadılması bununla bitmir: "Hətta bir dəfə bələdçi ərəb turisti aldadaraq 600 dollar ziyana salıb. Son zamanlar vətəndaşları aldadan turizm şirkətləri yaranmağa başlayıb. Bu tip şirkətlər əsasən internet üzərindən fəaliyyət göstərirlər. Onlar sosial şəbəkələrdə təşkil etdikləri turlarla bağlı reklamlar yerləşdirirlər, müştərilərə ucuz qiymətlər təklif edirlər. Bu şirkətlərlə əməkdaşlıq edən insanlar getdikləri yerdə onlara vəd edilən xidməti görmürlər. Ən pis halda isə getdikləri oteldə otağın onun adına bron olmadığının şahidi olurlar. Bu faktlar qeydə alınıb. Vətəndaşlar aldadılan zaman hüquq-mühafizə orqanlarına və Dövlət Turizm Agentliyinə müraciət edə bilərlər".

*"Bu şirkətlərlə əməkdaşlıq edən insanlar getdikləri yerdə onlara vəd edilən xidməti görmürlər, ən pis halda isə..."*

Həmsöhbətimiz onu da vurğuladı ki, vətəndaşlar əvvəlcə turpaket aldıqları şirkətləri internet üzərindən araşdırsınlar. Həmçinin, turizm şirkətlərilə sövdələşmələri rəsmi qaydada aparsınlar.

*Günel CƏLİLOVA*

---

**Xəzərin problemləri içərisində dəniz sularının və dənizkənarı zonaların çirklənməsi, bununla əlaqədar ekoloji şəraitin korlanması son dövrün mühüm məsələlərindən biridir. Xəzər dənizinin əsas çirklənmə mənbələri onun sahillərində yerləşən şəhərlərin və sənaye obyektlərinin çirkab suları, dəniz nəqliyyatı və neft mədənlərinin müxtəlif çirkləndiriciləridir.**

# Xəzəri çirkləndirən çimərliklərə qarşı ən sərt qərar verildi - Nazirlik tərəfindən...




## *İlqar Hüseynli: "Xəzər dənizini çirkləndirən ictimai iaşə obyektlərinin fəaliyyəti dayandırılmalıdır"*

Sahil ərazilərinin çirklənmə dərəcəsini isə əsasən yay mövsümünün sonunda müşahidə etmək mümkündür ki, bunun da başlanğıcında insan amili durur.

Xəzər dənizini çirkləndirən qurumlara, istirahət mərkəzlərinə qarşı sərt tədbirlər həyata keçirilir. Dənizi çirkləndirən istirahət mərkəzlərinin adı dəfələrlə ictimaiyyətə açıqlanıb. Eyni zamanda, qurğular quraşdırılanadək sözügedən obyektlərin fəaliyyətinin dayandırılması ilə bağlı aidiyyəti qurumlar qarşısında da məsələ qaldırılıb. Ancaq həmin istirahət mərkəzləri yenə də Xəzəri çirkəndirməkdə davam edirlər.

Bu günlərdə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin əməkdaşları Xəzər dənizinin Bakı, Sumqayıt, şimal və cənub sahil zolağında fəaliyyət göstərən ictimai iaşə obyektlərində tullantı sularının idarə olunması vəziyyəti ilə bağlı növbəti reydlər keçirib və bundan əvvəl verilən məcburi göstərişlərin icra vəziyyətini yoxlayıblar.

Nazirliyin Mətbuat xidmətinin rəhbəri İradə İbrahimova jurnalistlərə açıqlamasında bildirib ki, reydlər zamanı Xaçmaz rayonu ərazisində fəaliyyət göstərən "Çıraqqala", "Jalə", Sumqayıt şəhərindəki "Duyğu", "Liman", "Atlantida", "Flaqman", "Narınqala", "Balıqçı", "Alma", "Neptun", "Antalya", "Qala", Bakı şəhərindəki "Mirvari", "Riyad park", "Caspian Beach", "1001 gecə", "Eldarado", "Dostluq", "Aquapark" istirahət mərkəzlərinə bir müddət əvvəl verilən məcburi göstərişlərin tələbləri icra edilmədiyi üçün onların fəaliyyətlərinin dayandırılması ilə bağlı məhkəmə qarşısında vəsatət qaldırılıb.

Reydlər zamanı Nabranda fəaliyyət göstərən "Lotos", "Ulduz", Sumqayıtda "Katamaran", "Sahil", "Diana", Bakıda "Bizim sahil", "Xəzər", "Türkan", "Simurq", "Voyage", "Qala" və "Antalya" istirahət mərkəzlərində, Lənkəran-Astara zonasında isə "Dağlar oğlu", "Həsirli", "Su pərisi", "Panorama" ictimai iaşə obyektlərində də formalaşan tullantı sularının təmizlənmədən dənizə axıdıldığı aşkar edilib və cavabdeh şəxslər barəsində akt tərtib olunub. Formalaşan tullantı sularının təmizlənməsi üçün sözügedən obyektlərin sahiblərinə icrası məcburi olan məcburi göstərişlər verilib.

*"Belə olarsa, hər kəs qayda-qanuna riayət edər, ekologiyanı korlamaz"*

Ekspertlər də Xəzər dənizini çirkləndirən istirahət mərkəzlərinin fəaliyyətinin dayandırılmasının tərəfdarıdırlar.

Sosial sahə üzrə ekspert İlqar Hüseynli bildirdi ki, dənizə çirkab su axıdanlar və məişət əşyaları atanlar sərt şəkildə cəzalandırılmalıdırlar: "İstər istirahət mərkəzi olsun, ya da müəssisə, fərqi yoxdur, dənizi çirkləndirənlər qanun qarşısında cavab verməlidirlər. Bu günə kimi dənizi çirkləndirən istirahət mərkəzləri ilə bağlı müəyyən işlər görülüb. Onların adları ictimaiyyətə açıqlanıb, müəyyən tədbirlər görməsi ilə bağlı dəfələrlə xəbərdarlıq olunub. Ancaq buna baxmayaraq, həmin iaşə obyektləri heç bir iş görməyib, öz fəaliyyətlərini olduğu kimi davam etdiblər. Bəzi sahibkarlar edilən xəbərdarlığa əhəmiyyət verməyərək ekologiyanı pozmaqla məşğuldurlar. Bu səbəbdən də hesab edirəm ki, Xəzər dənizini və onun sahilini çirkləndirən istirahət mərkəzlərinin sahibləri sərt şəkildə cəzalandırılmalıdırlar. Zənnimcə, dənizi çirkab su ilə çirkləndirənlər yüksək məbləğdə cərimələnməli, bununla yanaşı, həmin məkanların fəaliyyəti dayandırılmalıdır. Belə olarsa, hər kəs qayda-qanuna riayət edər, ekologiyanı korlamaz".

*Günel CƏLİLOVA*

## ADPU-nun kafedra müdirinin iki monoqrafiyası Almaniyada çap edildi

**Təbii fəlakətlərlə mübarizə həmişə böyük bir problem olub. Daşqınlar, quraqlıq, tropik fırtına, sel, zəlzələ, vulkan püskürməsi, sunami, torpaq sürüşməsi kimi təbii fəlakətlər buna nümunə ola bilər. İnsanlar hər zaman bütün mövcud vasitələrlə bu fəlakətlərlə mübarizə aparıblar.**




XX əsrin ikinci yarısında aparılmış statistika göstərir ki, bu fəlakətlər arasında ən çox rast gəlinənlər tropik fırtına, zəlzələ, sel və quraqlıqdır. Təbii fəlakətlərlə əlaqəli problemlər müxtəlif beynəlxalq elmi və texniki konfransların aktual mövzusudur. 1994-cü ildə Yaponiyadakı konfransda qəbul edilən bəyannamədə zərərləri azaltmaq üçün təbii fəlakətlərə qarşı mübarizənin insan inkişafının vacib elementi olduğu qeyd edilmişdir. Konfransda təbii fəlakətlərlə mübarizə üçün yeni yolların araşdırılmasının zəruriliyi qeyd edilmişdi. İndiyə qədər təbii fəlakətlərlə mübarizədə əsas vəzifə onların qarşısını almaq deyil, onların nəticələrinə qarşı mübarizə aparmaq, ziyanın azaldılması olub. Buna görə də təbii fəlakətlərin proqnozlaşdırılması və qarşısının alınması problemini həll etmək onların gözlənilən xərclərinin, fəsadlarının aradan qaldırılmasından daha ucuzdur. Yuxarıda qeyd edildiyi kimi, təbii fəlakətlər arasında ən başlıcası sel və quraqlıqdır. Təcrübə göstərir ki, çay vadisində qurulmuş su anbarları daşqın və quraqlığa qarşı mübarizədə əsas vasitədir. Bir çay hövzəsində su anbarları nə qədər çox olarsa, su ehtiyatlarını idarə etmək daha asan olur. Bununla birlikdə, yeni su anbarlarının inşası coğrafi mövqeyə və su anbarının tikintisinin həddən artıq çox xərclərinə görə həmişə mümkün olmur. Ona görə də rezervuardakı suyun səviyyəsinin idarə edilməsi qarşıya qoyulan məsələdir. Su anbarlarının ehtiyatlarının idarə edilməsində ümumi nəzəri araşdırmalarda rezervuarların spesifikliyini və xüsusiyyətlərini xarakterizə edən evristik və empirik yanaşmalar da nəzərə alınmalıdır. Müsbət haldır ki, Azərbaycan Dövlət Pedaqoji Universitetinin (ADPU) Riyaziyyat fakültəsinin Kompüter elmləri kafedrasının müdiri, riyaziyyat üzrə elmlər doktoru, dosent Rövşən Hümbətəliyevin və Mingəçevir Dövlət Universitetinin əməkdaşı, texnika üzrə fəlsəfə doktoru Almaz Əliyevanın birgə hazırladığı və 2019-cu ilin iyul ayında Almaniyanın Düsseldorf şəhərində Lambert Akademy Publişinq tərəfindən çap edilmiş "Çaylarda su mənbələrinin rasional istifadə sisteminin kompüter modelinin hazırlanması" monoqrafiysı məhz bu məsələlərə həsr edilib.

Yerin səthindəki obyektlərin tərkibini və vəziyyətini məsafədən zondlamasının məlumatları əsasında izləmək məsələsi Yer kürəsini kosmosdan araşdırmağın qlobal vəzifəsinin bir hissəsidir. Yerin təbii ehtiyatlarının inventarlaşdırılmasının xəritəsinin hazırlanması üçün aerokosmik monitorinqi bir sıra hissələrə bölmək olar:

* fenoloji və dinamik monitorinq - təbii mühitdə mövsümi və çoxillik dəyişikliklərin monitorinqi;

* təbii monitorinq - təbii ekosistemlərin tərkibini və vəziyyətini izləmək;

* antropogen monitorinq - insan fəaliyyətinin ölçüsünə, formasına, dərinliyinə və digər nəticələrinə nəzarət.

Təbii monitorinqdə tədqiqat sahəsi müəyyən yer tipi səth siniflərinə və ya oxşar obyektlərin toplusuna şamil edilə bilər və məsafədən zondlamanın əsas vəzifələrindən biri tədqiq olunan obyektlərin müxtəlif vəziyyətlərini təsnifləşdirmək və şərh etmək imkanı verir. Tədqiq olunan obyektlərə bitkilərin müəyyən hissəsini, torpaqların urbanizasiyasını, islanmış və ya şoranlaşmış torpaqların bölgülərini, müxtəlif növ meşə və ya ot örtüyü, torpaq eroziyasının dərəcəsi və s. aid etmək olar. Bununla birlikdə, tədqiq olunan obyektlərin vəziyyətini müəyyən dərəcədə öyrənmək və qiymətləndirmək üçün çoxsaylı ətraf mühit amillərini həm təbii, həm də texnoloji baxımdan təhlil etmək lazımdır. Digər tərəfdən də bu obyektlər və ətraf mühit arasında ən sabit əlaqələrin müəyyən edilməsi eyni dərəcədə olmur. Riyaziyyat üzrə elmlər doktoru Rövşən Hümbətəliyevin və Kompüter elmləri kafedrasının dosenti, texnika üzrə fəlsəfə doktoru Səadət Mazanovanın bu ilin iyul ayında Almaniyanın Düsseldorf şəhərində Lambert Akademy Publişinq tərəfindən çap edilmiş "Kosmik görüntülərə metodoloji və alqoritmik yanaşmanın effektiv təqdimat və müraciətləri" monoqrafiyası məhz bu məsələlərin araşdırılmasına həsr edilib.

ADPU-nun İctimaiyyətlə əlaqələr və marketinq şöbəsindən bildirilir ki, hər iki monoqrafiya ADPU müəllimlərinin ciddi elmi uğurudur. Şöbə onları bu uğur münasibətilə ürəkdən təbrik edir və gələcək elmi-pedaqoji fəaliyyətlərində yeni-yeni uğurlar arzulayır.

# Ölkəmizdə keçirilən idman yarışları və musiqi festivalında təhlükəsizlik yüksək səviyyədə təmin olunub

**İyulun 20-dən 28-dək gücləndirilmiş iş rejimində çalışan daxili işlər orqanlarının əməkdaşları tərəfindən bu müddət ərzində paytaxtımızda keçirilən XV Avropa Gənclərinin Olimpiya Festivalı, eyni zamanda iyulun 22-dən 25-ə qədər velosiped yarışları və "Jara" musiqi festivalında təhlükəsizlik yüksək səviyyədə təmin olunub.**



Xüsusilə qeyd etmək lazımdır ki, xidmətə cəlb edilmiş yol patrul xidmətinin əməkdaşları Olimpiya Festivalı zamanı idmançıları, nümayəndə heyətlərini daşıyan 136 ədəd avtobusun tədbir yerlərinə, həmçinin təyin edilmiş ərazilərə təhlükəsiz çatmasını üçün fasiləsiz xidmət aparıb. İdmançıların və qonaqların qarşılanması, yola salınması prosesində yol polisləri 24 saat fəaliyyət göstəriblər.

Qeyd edək ki, yarışların keçirildiyi günlər ərzində tədbir iştirakçıları ilə bağlı hər hansı yol nəqliyyat hadisəsi qeydə alınmayıb.

Xüsusi olaraq qeyd edilməlidir ki, tədbirin keçirildiyi günlərdə sarı zolaqlarla bağlı bir neçə faktı nəzərə almasaq sürücülərə cərimələr tətbiq edilməyib. Bu isə aparılan profilaktik tədbirlərin uğurlu nəticəsi, eləcə də polis-vətəndaş münasibətlərinin yüksək qarşılıqlı anlayış səviyyəsində olduğunun bariz nümunəsidir.

# Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsi əməkdaşlarının daha bir uğurlu əməliyyatı - "Kalaşnikov"...

**Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin əməkdaşları üzərində qanunsuz olaraq silah-sursat gəzdirən və narkotik vasitələrin dövriyyəsi ilə məşğul olan şəxslərə qarşı bir neçə uğurlu əməliyyat tədbiri həyata keçirib.**




Belə ki, daxil olan məlumat əsasında Yasamal rayon sakini Firuz Kərimov Baş İdarənin əməkdaşları tərəfindən saxlanıb. Onun idarə etdiyi "VAZ 2121" markalı avtomobilin yük yerinə baxış zamanı 1 ədəd "Kalaşnikov" tipli avtomat silah, həmin silaha məxsus 1 ədəd daraq və 30 ədəd patron aşkar olunaraq götürülüb. Saxlanan şəxs ifadəsində silah-sursatın ona məxsus olduğunu etiraf edib.

Baş İdarə əməkdaşlarının keçirdiyi növbəti əməliyyat tədbiri nəticəsində isə paytaxt sakini, əvvəllər məhkum olunmuş Vüqar Əliyev saxlanıb. Onun Abşeron rayonu, Quşçuluq massivində yerləşən evinə baxış zamanı satış məqsədi ilə istintaqa məlum olmayan mənbədən əldə etdiyi 980 qram narkotik vasitə heroin və 1 ədəd elektron tərəzi aşkar olunaraq götürülüb. Araşdırma zamanı onun Bakı şəhəri və Abşeron rayonunda narkotik vasitələrin satışı ilə məşğul olduğu müəyyən edilib.

Baş İdarə əməkdaşlarının narkotik vasitələrin qanunsuz dövriyyəsinin qarşının alınması istiqamətində həyata keçirdikləri daha bir əməliyyat zamanı isə Biləsuvar rayon sakini Qadir Qarayev paytaxt ərazisində tutulub. Onun idarə etdiyi "QAZ 2411" markal avtomobilə baxış zamanı külli miqdarda 1 kiloqramdan artıq narkotik vasitə heroin aşkar edilərək götürülüb. Saxlanan şəxs heroini yaşadığı rayondan istintaqa məlum olmayan mənbədən əldə etdiyini və satmaq məqsədilə Bakı şəhərinə gətirən zaman polislər tərəfindən saxlandığını qeyd edib.

Qeyd edilən hər 3 faktla bağlı Baş İdarədəcinayət işləri başlanıb. Saxlanan şəxslərin hər biri barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbir0i seçilib.

# Şəxsi istifadəsi üçün çətənə kolları əkmişdi

**Xızı Rayon Polis Şöbəsi əməkdaşlarının keçirdiyi uğurlu əməliyyat tədbirləri nəticəsində kultivasiya yolu ilə yetişdirilmiş çətənə kolları aşkar edilərək götürülüb.**

DİN Mətbuat Xidmətinin Quba regional qrupundan verilən məlumata görə, Xızı RPŞ-nin əməkdaşları tərəfindən keçirilmiş əməliyyat tədbirləri nəticəsində rayonun Bəyəhmədyurd kənd sakini, 28 yaşlı Famil Baxışov tərəfindən kənd ərazisində xüsusi aqrotexniki qaydada qulluq edilərək yetişdirilmiş narkotik xassəli çətənə bitkiləri aşkarlanıb. Polis əməkdaşları tərəfindən həmin əraziyə keçirilən baxış zamanı oradan yaş çəkisi 34 kiloqram təşkil edən hündürlüyü 60-180 sm olan 51 ədəd çətənə kolu aşkar olunub.

Götürülmüş maddi sübutlar bioloji ekspertizaya təqdim edilib. Dindirilmə zamanı F.Baxışov çətənə kollarını aprel ayında əkdiyini və şəxsi istifadəsi üçün becəydiyini bildirib. Faktla bağlı Xızı RPŞ-də cinayət işi açılıb, araşdırmalar aparılır.

**Ölkəmizdə elektronika və məişət avadanlıqları satışı ilə məşğul olan bir çox şirkət var. Lakin bu şirkətlərin bir çoxunun fəaliyyətindən insanlar şikayətlənirlər. Son zamanlar ən çox şikayət olunan isə "Kontakt Home" mağazalar şəbəkəsidir.**

# "Kontakt Home" müştəriləri nədən narazıdır...




***"Kontakt Home" - Vəfa Rüstəmova:** "Bilməyinizi istərdik ki, baş vermiş hal bizi məmnun etmir və məsələnin həll olunmasında şirkət olaraq maraqlıyıq"*

"Kontakt Home"un alıcılarının, demək olar ki, əksəriyyəti narazılıq edir və yenidən bu mağazaya müraciət etməyəcəklərini bildirirlər. Onların fikrincə, "Kontakt Home"dan mal alan müştərilərin çoxu yolunu mütləq servisdən salmalı olur.

"Kontakt Home"dan mal alan müştərilərdən biri aldığı telefonda problem olduğundan "Servis Link" texniki servis mərkəzinə üz tutub. "Kontakt Home"dən və "Servis Link"dən növbəti şikayəti bu yaxınlarda sosial şəbəkədə Tuna Musaeva adlı istifadəçi yayıb. Həmin şikayəti olduğu kimi təqdim edirik: "Şikayətim "Kontakt Home" və "Servis Link"dəndir. Qızıl zəmanətlə alınmış "Hoffman" telefonu 4 ay əvvəl öz-özünə ekranın sönüb açılmaması şikayətilə "Servis Link"ə apardım. Orada telefona baxdılar və 14 iş günü ərzində düzəldilib təhvil veriləcəyini dedilər. Bir müddət sonra zəng etdilər ki, telefon hazırdır. Gedib götürdum, yoxladım, işləyirdi. Evdə gördüm ki, gələn zənglərə ancaq "nauşnik"lə cavab vermək olur. Bundan başqa, telefonun ekranı söndü və açılmadı. Yenidən apardım həmin yerə, hər iki problemi dedim, qəbul etdilər. Gördüm verdikləri vaxt bitib, özüm əlaqə saxlayaraq soruşdum ki, niyə hazır deyil? Dedilər bəs "elə indicə hazır olub, gəlin götürün". Getdim, telefonu qoşub verə bilmədilər, dedilər ki, üzürlü sayın, "nəsə problem var, biz sizə xəbər edərik". 4-5 gün sonra yenidən zəng etdilər, getdim. Ondan sonra 1 dəfə yenə də apardım, çünki telefon 10 gündən artıq islәmirdi. Sonuncu dəfə dedim ki, qızıl zəmanətin vaxtı bitsə də, mənim hüquqi yolum qalmasa da, mən hər yerdə, hər kəsə deyəcəm sizin fırıldaqlarınızı, keyfiyyətsizliyinizi. Sonuncu dəfə isə dedilər ki, bu sondur, artıq həmin hissəni dəyişmisik. Nəticədə bu dəfə telefon 17 gün işlədi və dünən yenidən söndü".

Məsələni dəqiqləşdirmək üçün "Kontakt Home" mağazalar şəbəkəsilə əlaqə saxladıq. "Kontakt Home"un ictimaiyyətlə əlaqələr şöbəsinin rəhbəri Vəfa Rüstəmova "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, Tuna Musayeva adlı "Facebook" istifadəçisinin iradı ilə bağlı "Facebook" qruplarının birində yazdığı şikayətdən xəbərdardırlar: "Sözügedən məsələnin araşdırılması və aydınlıq gətirilməsi məqsədilə istifadəçinin "Facebook" qruplarının birində yazdığı irad mətninə rəsmi səhifəmiz adından dərhal münasibət bildirilmiş və xanımın ad, soyad, ata adı və əlaqə nömrəsi istənilmişdir. Çünki xanımın "Facebook" profili bizə məsələni araşdırmaq üçün kifayət qədər məlumat vermir. Lakin Tuna xanımdan hələlik geridönüş ala bilməmişik. İstifadəçi bizə tələb olunan məlumatı təqdim etdikdən sonra məsələnin araşdırılması və həlli ilə bağlı işlərə başlanacaq. Müştərilərimiz bizim gücümüzdür və onların bizdən məmnun qalması şirkətimiz üçün ən önəmli faktorlardan biridir. Bilməyinizi istərdik ki, baş vermiş hal bizi məmnun etmir və məsələnin həll olunmasında şirkət olaraq maraqlıyıq. İstifadəçidən lazımi məlumatları aldıqdan sonra şikayəti araşdırılacaq və nəticələri ilə bağlı redaksiyanıza məlumat bildiriləcək.

*"İstifadəçidən lazımi məlumatları aldıqdan sonra şikayəti araşdırılacaq və nəticələri ilə bağlı redaksiyanıza məlumat bildiriləcək"*

İndi bununla bağlı mövqeyimizi almadan məlumatı dərc edən digər saytlara da açıqlamamızda qeyd edəcəyik ki, xəbərdə gedən bəzi məlumatlar subyektiv xarakter daşıyır və sübutu yoxdur. Məsələn, xəbərdə yazılır ki, "Kontakt Home"un alıcılarının, demək olar ki, əksəriyyəti narazılıq edir və yenidən bu mağazaya müraciət etməyəcəklərini bildirirlər. Onların fikrincə, "Kontakt Home"dan mal alan müştərilərin çoxu yolunu mütləq servisdən salmalı olur". Müştərilərlə birbaşa işləyən şirkətlərdə iradların olması təbiidir. Hər bir halda, bu, xoşagələn hal deyil. Lakin "alıcıların əksəriyyəti" demək üçün müəllifin əlində əsas və müqayisə üçün statistika olmalıdır. İndiki halda, istifadə olunan bu ifadə həqiqəti əks etdirmir və şirkətimizin nüfuzuna ziyan vurur".

***Günel CƏLİLOVA***

---

**Uşaq dünyaya gəldikdən sonra ən çox müzakirə olunan məsələlərdən biri adın qoyulmasıdır. Bir çox hallarda bu proses hətta körpələr dünyaya göz açmamışdan öncə başlayır. Bəzi ailələr nənə-baba adlarına, bəziləri bəyəndikləri, bir çoxları dini, müəyyən qisim isə serial və ya xarici qəhrəmanların adlarına üz tutaraq işlərini bitmiş hesab edirlər.**

# Serial qəhrəmanları Azərbaycana "doluşur"...



***Əhməd Qəşəmoğlu:** "Bütün bunlar onu göstərir ki, bizim gənc valideynlərin əvvəlki kimi mütaliə səviyyəsi yoxdur"*

Azərbaycanda son zamanlar yeni doğulan körpələrə xarici serial qəhrəmanlarının adlarının qoyulması halları artıb. Son statistik rəqəmlər göstərir ki, uşaqlara daha çox xarici serial qəhrəmanlarının adı qoyulur. Belə ki, Ədliyyə Nazirliyinin statistik məlumatlarına da nəzər yetirdikdə son dövrlərdə uşaqlara qoyulan adlar içərisində Türkiyə seriallarından götürülən adların çoxluğunun şahidi oluruq.

Belə adlar daha çox qız uşaqlarına qoyulur. Yalnız bu il ərzində Əsma 259, Damla 253, Miray adı 226, Nur 220, Melisa 186, Aişə 109, Milana 84, Elif 82, Elay 78, Selcan 70, Milay 66, Selin və Sunay 62, Əsra 54, Əsmanur və İlayda 49, Cansu adı isə 42 qıza qoyulub.

Oğlanlara gəldikdə isə, bu il 183 uşağa Fateh, 194-nə Onur, 77-nə Renat, 70-nə Miran, 65-nə Turqut, 49-na isə Harun adları qoyulub.

Onu da qeyd edək ki, əvvəllər qoyulan Qızbacı, Xanımbacı, Balacaxanım, Xırdaxanım adlarını artıq heç kəs qoymur. Bu adlar əvvəllər daha çox qoyulan adlar olsa da, 2010-cu ildən sonra bu adlar uşaqlara verilməyib. Yalnız seriallardakı adlara meyl artıb. Bu da, heç şübhəsiz, yaxşı hal sayıla bilməz. Elə etmək lazımdır ki, uşaqlara daha çox milli adlar qoyulsun.

Hər halda, bu sahədə yaranan vəziyyəti ekspertlər necə dəyərləndirir və çıxış yolunu nədə görürlər?

Sözügedən məsələni "Bakı-Xəbər"ə şərh edən sosioloq Əhməd Qəşəmoğlu bununla bağlı bir sıra məqamlara aydınlıq gətirdi: "Daha çox xarici serial adlarına üstünlük verilməsi o deməkdir ki, ölkədə vətənpərvərliklə, öz ədəbiyyatımızı, tariximizi, folklorumuzu sevdirməklə bağlı lazımi işlər aparmırıq. Bu daha çox o deməkdir. Bunun nəticəsində cəmiyyətdə belə arzuedilməz xüsusiyyətlər əmələ gəlib. Türk seriallarından elə adlar qoyurlar ki, bu təəccüb doğurur. Məsələn, qızların adını Filiz qoyurlar. Azərbaycanda indiyə qədər bu adı eşidəndə təsəvvürdə mədəndə olan məhsul yada düşür. Çünki filiz mədən məhsuludur. Ancaq qızlar arasında Filiz adı artdıqca, yaşlı adamlar çaşbaş qalır. O mənada ki, bu ad hardan gəldi... Görürsən ki, qızın adını Cansu qoyurlar və s. Bütün bunlar həm də onu göstərir ki, bizim gənc valideynlərin əvvəlki kimi mütaliə səviyyəsi yoxdur. Bu da təəssüf hissi doğurur.

*"Ortada ciddi bir filmimiz yoxdur ki, oradan kiminsə adını götürüb uşağa qoysunlar"*

Əvvəllər gənclər Azərbaycan ədəbiyyatına aid olan adları qoyurdular. İndi vətənpərvərliklə bağlı ortaya qoyulan işlərin səviyyəsi çox aşağıdır. Ölkədə ciddi teleseriallar yoxdur. Olan seriallar onu-bunu yamsılayır. Yəni Türkiyə, Rusiya, Braziliya seriallarını yamsılayırlar. Ortada ciddi bir filmimiz yoxdur ki, oradan kiminsə adını götürüb uşağa qoysunlar. Bax, budur problem. Ona görə də sadaladığım sahədə işlər yoluna düşməsə, əcnəbi serial qəhrəmanlarının adlarını uşaqlara qoymaqda davam edəcəklər".

***Vidadi ORDAHALLI***

# "Yetim bir haray var, gəzir dünyanı"

*Nəzirməmməd Zöhrablının "Gözlər yoldan yığılarmı..." kitabı haqqında düşündüklərim*




**İllərdən sonra yazdığım ilk məktubdur bəlkə də bu. Əslində yer üzünün insanlarına ünvanlanmış "Gözlər yoldan yığılarmı..." haray dolu məktub-kitaba, onun müəllifi, istedadlı qələm dostum, yazıçı-publisist Nəzirməmməd Zöhrablıya bir dost, vəfa borcumdu bu sətirlər.**

Qarabağ uğrunda döyüşlərdə itkin düşmüş qəhrəman övladımız, cəsur kəşfiyyatçı Xəqani Əkbərovun keçdiyi şərəfli ömür yolundan söhbət açan bu kitab böyük zəhmətin, yazıçı, jurnalist axtarışlarının, ürək ağrısının, göz yaşlarının məhsuludur.

Redaktoru olduğum kitabın əlyazmasının hər səhifəsində mən bu hiss və həyəcanları duydum, yaşadım...

...Uşaq vaxtlarımdan əl şəkili çəkməyi xoşlayırdım. Qumral saçlı körpə bacım mürgüləyən kimi qırmızı rəngli karandaşımı onun balaca barmaqları arasında gəzdirir, bu "balaca əlləri" məktubla uzaq Sibirdə əsgərlikdə olan qardaşıma göndərirdim. Mənə elə gəlirdi ki, bu doğma balaca əllər o uzaq soyuq Sibirdə qardaşımı soyuqdan, şaxtadan, xətadan, bəladan qoruyacaq.

Əziz dostum Nəzirməmməd, sənin böyük əziyyətinin, zəhmətinin, axtarışlarının, yuxusuz gecələrinin toplusu olan bu əl boyda, ürək boyda kitabın istiliyini, hərarətini ilk duyduğum üçün ürəyimdən keçənləri sənə yazmağı lazım bildim. 45 illik redaktorluq təcrübəsi olan, yüzlərlə kitabın əzab-əziyyətini çəkmiş, redaktoru olmuş yaradıcı bir insana işıq üzü görən hər kitab doğma balası kimi əzizdi. Sənin bu kitabın da o sıradandı. Minaaxtaranlar kimi çəkdiyin əzab-əziyyəti kim bilməsə də, mən yaxşı bilirəm. 25 il bundan əvvəl Qarabağda - Ağdamda itkin düşmüş cəsur bir Azərbaycan oğlunun axtarışları yolunda göstərdiyin fədakarlıq, vətəndaşlıq borcu, ayrı-ayrı ünvanlara aparan çəkdiyin "yol xəritəsi" və yollarda keçirdiyin saatlar, günlər, həftələr, aylar nisgilli bir ömrün tarixçəsi olan monumental kitabın araya-ərsəyə gəlməsinə səbəb olub.

Orijinal başlıqlar, maraqlı keçidlər, dil və üslub gözəlliyi, bədii nümunələrdən ustalıqla istifadə, təkrarsız dialoqlar, müsahibələr sənin yazılarını əslində Vətən təəssübü çəkən hər bir kəsin oxuyacağı doğma kitaba çevirmişdir.

Söhbət etdiyin hər bir kəsin cızdığı, çəkdiyi, qabarıq verməyə çalışdığı Xəqani portretindəki mərdlik, vətənpərvərlik cizgiləridir. Bunu qardaşı Gündüzlə apardığın söhbətdən də aydın görmək olar. Xəqaniyə deyəndə ki, sən evin sonbeşiyisən, müharibəyə getməyə də bilərsən, Xəqani dözə bilməyib cavab vermişdi: "Bəs kim getsin?" O qaçır, bu gizlənir, torpaqımız da gedir əldən, namus, qeyrətimiz də... Mən başıma yaylıq-şal bağlayıb evdə otura bilmərəm - Xəqaninin bu sözləri mənə istiqlal nəğməkarı, qüdrətli şairimiz Xəlil Rza Ulutürkün: "Yox, mən susa bilməzdim" harayını, üsyanını xatırlatdı. Xəlil Rzaya: "aradan çıx, gizlən" deyənlərə böyük şair görün necə cavab vermişdi:

- ...Yox, mən susa bilməzdim yurdumun o halında,
Mən gizlənə bilməzdim arvad-uşaq dalında
Qaçqınların göz yaşı dağ çəkəndə yollara,
Südsüz qalan yavrular baş qoyanda qollara
Gəncəbasar, Sumqayıt cəhənnəmə dönəndə,
Nizaminin qəbrinə ölüm tozu sinəndə.
Sinəmdə odlanarkən neçə qəzəb kürəsi,
Bir ildırım doğanda qanımın hər qətrəsi
Vətənimi talanan, sümürülən görəndə,
Qısırlaşan torpağım qarşımda can verəndə
Ağzıqanlı canavar yalayıban dilini,
Gəlib lum-lum udanda Muğanımı, Milimi,
Arxadan bağlayanda cəsurların əlini,
Susa bilərdimmi mən?!

Görünür, Vətən dərdini öz dərdi bilən böyük insanların hamısı belədir. Təzəcə nişanlanmış bir oğlanın cəbhəyə könüllü olaraq getməsi, döyüşlərin ən qaynar nöqtəsinə can atması böyük vətənpərvərlik nümunəsi deyil, bəs nədir?!

Vətənin o ağır çağlarında övladlarını cəbhədən yayındıranlar, Rusiyaya, başqa ölkələrə göndərənlər azmı oldu? Belə nadürüstlərlə, nankorlarla müqayisədə Xəqani qəlbimizdə Savalan dağı qədər ucadı, əyilməzdi. Vətən belə qəhrəman, cəsur, qeyrətli oğulların çiyinlərindədir.

Əziz dostum Nəzirməmməd! Sən bu cür övladı dünyaya gətirən ananın obrazını bir neçə epizodda necə də ustalıqla cızmısan. Bu, görünür sənin həm də analara olan böyük sevgin, ehtiramındır:

"Birdən görürdüm ki, qar yağıb. Evdəkiləri yuxuya verib düşürdüm həyətə. Deyirdim Xaqan qarda ölüb, görəsən necə ölüb?! Gedib xəlvətçə oturordum, uzanırdım qarın üstündə, girirdim qarın içinə. Deyirdim qoy mən də balam kimi ölüm, buzlayım, donum qalım burda. Qar elə bil bir az soyudurdu yanğılarımı... Birdən fikirləşdim ki, bəlkə heç ölməyib balam?! Evdəkilər duyuq düşürdülər. Gəlib məni ərki çatan danlaya-danlaya, öyüd-nəsihət verə-verə, ərki çatmayanlar dilə tutub birtəhər yerdən qaldırıb dartıb aparırdılar evə".

Əziz qardaşım, Telli anayla - oddan-alovdan köynək geyinən, bala yanğısıyla canını qoymağa yer tapmayan bir türk anasıyla olan söhbətlərinlə sən əslində hamımızın baş əydiyimiz bir ana heykəli, bir dərd heykəli ucaltmısan. Mən o sətirləri oxuya-oxuya kövrəldim, gözlərim doldu. İlahi, ana ürəyi yer üzünün bütün dərdlərini maqnit limi necə də özünə çəkirmiş. O da ola bala dərdi. Xəqani kimi oğulun dərdi. İtkin düşmüş balasının dərdindən canını qoymağa yer tapmayan, şəhərlə kənd arasındakı yollarda qalan, qəribə xəyallar quran bir ananın sarsıntılarını, tərəddüdlərini, iztirablarını görəndə çox sarsıldım. Bu əslində sənin yazıçı-publisist ustalığındı. Yadıma böyük Nazim Hikmətin dərdli misraları düşdü:

- Buludlar keçir,
Cənuba aparmayın məni
Ölmək istəmirəm,
Ölmək istəmirəm.
Şimala aparmayın məni,
Ölmək istəmirəm,
Ölmək istəmirəm.
Qərbə aparmayın məni.
Məni burda qoymayın,
Aparın bir yerə,
Ölmək istəmirəm,
Ölmək istəmirəm!

Bəli, bu bizim analarımızdı. Ölümün özünü belə heyrətə gətirən, ölümün acığına qol götürüb oynayan, ölümün özünü öldürən analarımız! İlahi, 25 ildi oğul yolu gözləyən bir ananın dərdini nər dəvəyə yükləsən, dözərdimi.?! Çətin!

Əslində kitabda bacı-qardaşların hamısının Xəqani haqqında duyğu və düşüncələrinə yer verilib. Bu duyğuları, bu öygüləri, bu yalvarışları, uzaqdan gələn qaibanə səsə bənzər ahları, nalələri Xəqani eşitsəydi, bəlkə də elə o dar qəfəslərin qoynundan quş olub uçardı.

Biz nədənsə doğmalarımızın qədrini-qiymətini onları itirəndə bilirik. Dərdimizin nə qədər böyük olduğunu duyub dərk edirik. Xəqaninin də itkin düşməsi, qeyb olması, 25 illik uzaqlardan belə doğmalarını, dostlarını yandırıb-yaxması, cızdaqlarını çıxarması təbiidi. Biz insanıq, daş-divar deyilik axı. O da ola Vətənin məcnunu Xəqani kimi oğul. Təəssüf, min təəssüf, mamır basmış daş da göyərir, insansa yuvası dağılmış, küsüb getmiş qaranquşlar kimi bir də geri dönmür. Keşkə belə olmayaydı...

Bu kitab indi 50 yaşı olan Xəqaninin iziylə lap nağıllardakı kimi dəmir çarıq geyinib yurdu başdan-başa dolanmaqdı, ümidlə, həyəcanla yol gözləməkdi.

Hər yolun başında, sonuncunda qolları uzalı qalmış bir ana dayanıb. O analardan biri də Telli anadı. Oğlunun ölmədiyinə, gələcəyinə hələ də inanan ana!

Xəqaninin doğmalarının, əzizlərinin gözlərində hələ də ümid çırağının sönməməsinin bir səbəbkarı da bəlkə elə sənin "Gözlər yoldan yığılarmı..." kitabındı, Nəzirməmməd dostum.

Sən bir ailənin yaşadığı dramı, faciəni bütövlükdə insanlığın faciəsi kimi göstərə bilmisən. Budur sənin ustalığın.

Saysız-hesabsız sorğulara, jurnalist təhqiqatlarına, axtarışlarına, həqiqəti üzə çıxarmaq yolunda çəkdiyin əzab-əziyyətlərə, görünür, nöqtə qoymağın vaxtı hələ çatmayıb. Axtarışlar davam edir. Belədə sənin "Gözlər yoldan yığılarmı..." nidasualına vaxt, zaman cavab verəcək. Verə biləcəkmi?! Böyük Musa Yaqub: "Bu dünya ayrılıqdı, ayrılıq başdan-başa" demiş.

Tanrı Vətənimizi qorusun!

***Zülfüqar Şahsevənli***

# Kitabxana və klublar yeni qaydada idarə olunsa nə baş verəcək...

**Kitabxana və klublar mədəniyyətin təbliğində, maarifçilik məsələsində xüsusi rol oynayır. Bir vaxtlar daha aktiv fəaliyyət göstərən kitbxana və klublar son illər öz imkanlarından elə də istifadə edə bilmir. Bu problem ən çox da klublarla bağlı özünü göstərir.**




*Aydın Xan Əbilov: "Kitabxana və klubları düşdüyü ağır durumdan çıxarmaq üçün hazırlanan layihə tətbiq edilməzdən əvvəl ictimai müzakirəyə buraxılsa daha effektiv olar"*

Nəzərə alsaq ki, klubların çoxu kənd və qəsəbələrdə yerləşir, onların əsas işi uşaq, yeniyetmə və gəncləri tərkibində fəaliyyət göstərən müxtəlif dərnəklərə, kurslara cəlb etmək, onlara mədəniyyətin, incəsənətin ayrı-ayrı sahələrini təlqin etməkdir. Ancaq təəssüf ki, bir sıra klublar bu işin öhdəsindən lazımı səviyyədə gələ bilmir.

Burada ən ciddi çətinliklərdən biri də ixtisaslı kadr çatışmazlığıdır ki, bu istiqamətdə də köklü işlər görülməlidir. Doğrudur, müxtəlif qurumlar mədəniyyət işçilərinin peşəkarlıq səviyyəsinin artırılması ilə bağlı müxtəlif treninq və seminarlar təşkil edirlər, lakin bütövlükdə bu, kadr yetişdirməyi əhatə edə bilmir.

Mədəniyyət naziri Əbülfəs Qarayev bildirib ki, kitabxana və klubların idarə olunması istiqamətində islahatlar keçirilir. Nazirin sözlərinə görə, mədəniyyət müəssisələrinin işinin müasir tələblər səviyyəsində qurulması, kitabxana və klublarla bağlı yeni layihə hazırlanıb.Bu istiqamətdə hazırlanan yeni layihə kitabxana, klub və digər mədəniyyət müəssisələrinin fəaliyyətində nə kimi dəyişiklik edə biləcək?

Yeni Yazarlar və Sənətçilər Qurumun rəhbəri, yazıçı - kultroloq Aydın xan Əbilovun sözlərinə görə, Azərbaycanda müstəqillik illərindən bəri mədəniyyət müssisələrində, kitabxanalarda, klublarda həm idarəetmə, eləcə də özəlləşdirmə ilə bağlı bir sıra islahatlar aparılıb. "Çox təəssüf ki, bu sahədə aparılan islahatlar heç də ümumi mədəniyyətimizin xeyrinə olmadı. Xatırlayırsınızsa, bir çox kinoteatrlar, klublar, mədəniyyət sarayları, dərnəklər, uşaqlar üçün rəsm qalereyaları bağlandı və onların çox az bir hissəsi saxlanıldı. Eyni zamanda da həmin dövrdə "islahatlar" adı altında çoxlu kitabxanalar qapadıldı, onların bina və ofisləri özəl şirkətlərə satıldı. Kitab mağazaları bağlandı, yerində restoranlar, mağazalar, kafe və barlar açıldı. Kinoteatrların yerində ya yaşayış, ya da ticarət obyektləri inşa edildi. Bu gün mədəniyyət naziri Əbülfəs Qarayev deyirsə mədəniyyət ocaqlarının idarəedilməsi ilə bağlı yeni layihə hazırlanıb, bir kultroloq olub bu barədə ehtiyatla danışmağa başlamalıyam. Ümid edirəm ki, yeni islahat dalğası olub-qalan mədəniyyət ocaqlarını məhv etməyəcək. Baxın, insanlarımız mədəniyyət ocaqlarından, kitabxanalardan, klublardan, teatrlardan çox kafe və restoranlara, şadlıq evlərinə gedir. Kitabxanalardakı kitabların üzünün sonuncu dəfə nə zaman açıldığını deyə bilmirik. Dünyanın hər yerində mədəniyyət ocaqlarına, muzey, kitabxana və klublara getmək bir prestij sayılır, öz estetik zövqünü və intellektini, dünyagörüşünü artırmaq üçün insanlar bu ocaqlara kütləvi axın edirlər. Azərbaycanda isə belə deyil. Mədəniyyətə ictimaiyyət arasında belə bir soyuq münasibət olduğu halda mədəniyyət sahələrində hansısa islahatların uğur qazanacağına inanmıram.

> *"Mədəniyyətə ictimaiyyət arasında belə bir soyuq münasibət olduğu halda, mədəniyyət sahələrində hansısa islahatların uğur qazanacağına inanmıram"*

Əlbəttə ki, mədəniyyət ocaqları, kitabxana və klublar çalışmalıdır öz işlərini zamanın tələbinə uyğun qursun. Amma mədəniyyət ocaqlarının idarəedilməsi sahəsində hansısa layihə hazırlanıbsa, o tətbiq edilməzdən əvvəl ictimai müzakirəyə buraxılmalıdır. Deyim ki, cənab nazir həmişə islahatların və yeniliyin tərəfdarı olub, bu sahədə durumun ağır olduğunu bildiyi üçün bu istiqamətdə islahatlar həyata keçirməyə qərar verib".

A.X.Əbilov hesab edir ki, mədəniyyət sahəsində hər hansı bir layihə hazırlanırsa,onun hazırlanmasında ancaq məmurlar iştirak etməməlidir. Ekspertin sözlərinə görə, məmurlar çox zaman məsələlərə öz maraqlarına uyğun şəkildə yanaşırlar. "Hesab edirəm ki, Mədəniyyət Nazirliyinin tərkibində ictimai şura yaradılmalıdır və bu şurada yalnız məmurlar deyil, həm də tanınmış mədəniyyət xadimləri, mədəniyyətşünaslar təmsil olunmalıdır. Həyata keçirilən islahatlarla, layihələrlə bağlı hanısa bir mədəniyyətşünasla məsləhətləşilirmi? Xeyr. Halbuki, xalqın içində olan mədəniyyətşünaslar mədəniyyət ocaqlarının problemlərini daha dərindən bilir. Təklif edərdim ki, Mədəniyyət Nazirliyi mədəniyyət xadimlərini, kulturoloqları, menecerləri, kreativ bizneslə məşğul olan insanları bir yerə yığsın, müzakirələr aparılsın və ümumi nəticələrə gəldikdən sonra bu islahatlar aparılsın. Kitabxana və klubları düşdüyü ağır durumdan çıxarmaq üçün hazırlanan layihə tətbiq edilməzdən əvvəl ictimai müzakirəyə buraxılsa daha effektiv olar"-deyə A.X.Əbilov vurğuladı.

***İradə SARIYEVA***

# Nazirlik Bakıda məşhur istirahət mərkəzlərinin bağlanması məsələsini qaldırdı



**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin əməkdaşları tərəfindən Xəzər dənizinin Bakı, Sumqayıt, şimal və cənub sahil zolağında fəaliyyət göstərən ictimai-iaşə obyektlərində tullantı sularının idarə olunması vəziyyəti ilə bağlı növbəti reydlər keçirilib və bundan əvvəl verilmiş məcburi göstərişlərin icra vəziyyəti yoxlanıb.**

Baki-xeber.com xəbər verir ki, nazirliyin mətbuat xidmətinin rəhbəri İradə İbrahimova Sputnik Azərbaycan-a açıqlamasında reydlər zamanı Xaçmaz rayonu ərazisində fəaliyyət göstərən "Palma", "Riverin", "Ober Lyuks", "El Faro", "Təhsil", "Atlant" istirahət mərkəzlərində su təmizləyici qurğuların quraşdırıldığı, Sumqayıtda fəaliyyət göstərən "Dostluq", "Caspian Breeze", "Şərur", "Amore", "Nicat", "Freqat", "Regnum", "Röya", "Turan", "Təndir", "Qala" istirahət mərkəzlərinin çirkab sularının mərkəzi kanalizasiya şəbəkəsinə qoşulduğunun müəyyən olunduğunu deyib.

Xaçmaz rayonundakı "Çıraqqala", "Jalə", Sumqayıt şəhərindəki "Duyğu", "Liman", "Atlantida", "Flaqman", "Narınqala", Balıqçı", "Alma", "Neptun", "Antalya", "Qala", Bakı şəhərindəki "Mirvari", "Riyad park", "Caspian Beach", "1001 gecə", "Eldorado", "Dostluq", "Aquapark" istirahət mərkəzlərinə bir müddət əvvəl verilmiş "məcburi göstəriş"lərin tələbləri icra edilmədiyi üçün onların fəaliyyətlərinin dayandırılması ilə bağlı məhkəmə qarşısında vəsatət qaldırılıb.

Reydlər zamanı Nabranda fəaliyyət göstərən "Lotos", "Ulduz", Sumqayıtda "Katamaran", "Sahil", "Diana", Bakıda "Bizim sahil", "Xəzər", "Türkan", "Simurq", "Voyage", "Qala" və "Antalya" istirahət mərkəzlərində, Lənkəran-Astara zonasında isə "Dağlar oğlu", "Həsirli", "Su pərisi", "Panorama" ictimai-iaşə obyektlərində də formalaşan tullantı sularının təmizlənmədən dənizə axıdıldığı aşkar edilib və cavabdeh şəxslər barəsində akt tərtib olunub. Formalaşan tullantı sularının təmizlənməsi üçün sözügedən obyektlərin sahiblərinə icrası məcburi olan "məcburi göstəriş"lər verilib.

№ 133 (4031) ■ Qiymәti: 40 qәpik

BAKI XƏBƏR

www.baki-xeber.com

31 İYUL 2019-cu il

# Arxeoloqlar Krım Atlantidasının sirrini açırlar

**Arxeoloqlar 2020-ci ildә Krımın yaxınlığında suyun altında qalmış Akra şәhәrindә qazıntıları davam etdirәcәklәr.**



"AZƏRTAC" bildirir ki, Qara dәnizdә sualtı tәdqiqatlar mәrkәzinin direktor müavini Viktor Vaxromeyev bu әrazidә çoxlu sayda unikal mәdәniyyәt abidәlәrinin olduğunu qeyd edib. Krımın Atlantidasında hansı sirlәr mövcuddur? Arxeoloqlar bildirirlәr ki, Akra şәhәrinin qalıqlarının 90 faizi suyun altında, 10 faizi isә quruda qalıb. Onlar şәhәrin quru hissәsindә qazıntılara başlayıblar, suyun altında isә ekspedisiya gәlәn il tәşkil edilәcәk. Qәdim yaşayış mәskәninin arxeoloji tәdqiqatı 1982-ci ildә başlayıb. Hәmin il Krımın sakinlәrindәn biri Akranın quru hissәsindә çoxlu sayda qәdim sikkә tapmışdı. O vaxt tәşkil edilәn ekspedisiya müәyyәn etmişdi ki, şәhәrin böyük bir hissәsi suyun altında qalıb. Alimlәr tarixi mәnbәlәrә istinadla müәyyәn ediblәr ki, Akranın әsasını Bosfor dövlәtlәri - Nimfeya vә Pantikapeyanın sakinlәri qoyublar. Bu şәhәr Takil burnunun şimal-şәrq hissәsini әhatә edib vә IV әsrin әvvәllәrinә qәdәr Bosfor dövlәtinin tәrkibindә olub. Yeni vә köhnә eranın ayrılması dövründә Qara dәnizdә suyun sәviyyәsinin qalxması nәticәsindә Akra 4 metr dәnizin altında qalıb. İndiyәdәk şәhәrin әrazisinin 5 faizini aşkar etmәk vә orada ilkin tikililәr vә qüllәlәrin qalıqlarını tapmaq mümkün olub. İyulun 1-dәn başlayan vә avqustun 1-dә başa çatacaq ekspedisiya isә artıq şәhәrin müdafiә istehkamlarının 70 metrini üzә çıxarıb. Arxeoloqların düşәrgәsi Qara dәnizi Yanış gölündәn ayıran qumlu zolaqda yerlәşir. Onlar bu әrazidә gil qabların qalıqlarını vә qәdim sikkәlәri aşkar ediblәr. Sevastopol Dövlәt Universitetinin arxeoloqları isә qәdim şәhәrin dәnizin altında qalmış hissәsini tәdqiq edәcәklәr. Ekspedisiyada alimlәrlә yanaşı, tәlәbәlәr dә iştirak edirlәr. Gәlәcәkdә Akranın vizual bәrpası layihәsinin hazırlanması da nәzәrdә tutulur.

## 13 yaşlı oğlan tәyyarә oğurlamağa cәhd etdi

Çindә 13 yaşında bir oğlan anbardan tәyyarә oğurlayaraq qaçırmağa çalışıb. "Milli.Az" xәbәr verir ki, hadisә Zhejiang bölgәsindә Huzhou şәhәrindә baş verib. Oğlan ilk cәhdindә tәyyarәni anbarın kәnarındakı dәmir manеәlәrә çırpıb. O, ikinci tәyyarә ilә etdiyi cәhdindә dә uğuruzluqla üzlәşib. Hadisә tәhlükәsizlik kameraları tәrәfindәn anbaan qeydә alınıb. Yerli media polisin uşağı saxladığını açıqlayıb. Mәlumata görә, oğlan tәyyarәlәri gündüz tәmir edilәrkәn izlәyib.



## Elan

Ağayev Sirac Rafail oğlunun adına, Abşeron rayonu, Masazır qәsәbәsi, "Bağçalı Evlәr" kompleksi, ev 7 b, mәnzil 24 ünvanına "Bağçalı Evlәr" MTK tәrәfindәn verilmiş sәnәdlәr itdiyi üçün etibarsız sayılır.

Moldanavtsev Konstantin Valentinoviçә mәxsus, Bakı şәhәri, Nәsimi rayonu, ev 35, mәnzil 6 ünvanının qeydiyyat vәsiqәsi (seriya ÖM N 038886) itdiyi üçün etibarsız sayılır.

AR Əmlak MDKYD Əmlakın DRX-nın 4 saylı Abşeron әrazi idarәsi tәrәfindәn Hәsәnov Pәrviz Şahlar oğlunun adına verilmiş AN 3089964 saylı torpaq sahәsinin plan ölçüsü itdiyi üçün etibarsız sayılır.

Hüseynova Əsmәr Ziyatxan qızına mәxsus, Bakı şәhәri, Abşeron rayonu, Saray qәsәbәsi, Babәk küçәsi, ev 1 A ünvanının (JN-785 A, kod 30800086) şәhadәtnamәsi itdiyi üçün etibarsız sayılır.

Bayramova (Mahmudova) Rәna Abbas qızının adına, Hövsan qәsәbәsi, Hövsan yolu (Elman Qasımov) küçәsindә yerlәşәn ev 14, mәnzil 42 ünvanının qeydiyyat vәsiqәsi itdiyi üçün etibarsız sayılır.

## 60 yaşlı kişi parabeyin çıxdı

**Moskvada bir kişinin beyinsiz olduğu aşkarlanıb. "Milli.Az" Türkiyә mәtbuatına istinadla xәbәr verir ki, Rusiyanın paytaxtı Moskva şәhәrindәki xәstәxanalardan birinә müraciәt edәn kişini müayinә edәn hәkimlәr dәhşәtә gәliblәr.**



60 yaşlı kişinin parabeyin olduğu aşkarlanıb. Belә ki, onun beyninin 50 faizinin yoxluğunu görәn hәkimlәr kişidә hәr hansı qüsurun olmadığını müәyyәnlәşdiriblәr. Hәmin xәstәnin adı mәtbuata açıqlanmayıb. Bu isә xәstәnin adının mәtbuatda çәkilmәsini istәmәmәsi ilә bağlıdır. Onun adı açıqlanmasa da, universitet bitirdiyi, ailәli olduğu bildirilib. Kişinin dediyinә görә, bu yaşına qәdәr hәr hansı problem yaşamayıb. Mәsәlә ilә bağlı açıqlama verәn nevroloq Marina Anikinanın dediyinә görә bu, nadir hadisәdir.





**Qoç** - Çox şey vәd edәn uzunmüddәtli investisiyalar yatırmaq şansınız var. Riskә getmәk baxımından çox uğurlu gündür. Tәkcә gәlirlәrinizi artırmaq vә faydalı sövdәlәşmәlәr әldә etmәk olar.



**Buğa** - Seçdiyiniz istiqamәtdә hәrәkәti davam etdirin, mövqelәrinizi möhkәmlәndirin. Yolunuzda çәtinliklәr yaranarsa, tәslim olmayın. Bu gün nümayiş etdirdiyiniz inadkarlığa görә ulduzlar yaxın vaxtlarda sizi mükafatlandıracaqlar.



**Əkizlәr** - Ətrafınızdakı baş verәnlәrә obyektiv reaksiya verin. Adekvat olun. Bu vә digәr sәbәblәrdәn işgüzar mühitdә gәrginlik yarana bilәr. Hәmkarlarınızı bәdxah, rәhbәrliyi aqressiv saymayın.



**Xәrçәng** - Günün ilk yarısı intuisiyanızı işә salın. Fәaliyyәtiniz planlaşdırılmış işlәrlә bağlıdırsa, diqqәtli vә sayıq olun. Çevik, şüurlu, hiylәgәr insan tәsiri bağışlayın. Axşam saatlarını sevdiyiniz insanlara hәsr edin.



**Şir** - Günün ilk yarısında fikirlәriniz sәlis olsun. Yeniliklәr vә dәyişikliklәr olacaq. Onların nә dәrәcәdә uğurlu olacağı bilavasitә sizdәn, cәhdlәriniz vә sәylәrinizdәn asılıdır. Qәtiyyәtli davranın.



**Qız** - Diplomatcasına hәrәkәt edin, naqolay vәziyyәtә düşmәmәk üçün sәhih davranın. Hәmkarlar vә şәriklәrlә birgә fәaliyyәtdә yaranan anlaşılmazlığı müzakirәlәrlә, danışıqlarla aradan qaldırmaq olar.



**Tәrәzi** - Gün bütün mәnalarda әlverişlidir. Əsas mәsәlә yenilik vә qeyri-әnәnәvilikdәn qorxmamaqdır. Bütün kәşflәr yaxşı, bütün eksperimentlәr uğurlu, bütün ideyalar heyranlığa layiqdir.



**Əqrәb** - Daha diqqәtli olun, әtrafınızda baş verәn hadisәlәrin mahiyyәtindәn bixәbәr olmayın. Yeni avadanlıq vә ya texnika ilә işin ilkin mәrhәlәsindә sәhvlәr, yanlışlıqlar yarana bilәr. Nә isә dәrhal alınmasa, ruhdan düşmәyin.



**Oxatan** - Mәqsәdә çatmaq üçün bilik, bacarıq vә tәcrübәnizdәn mümkün qәdәr çox istifadә etmәli olacaqsınız. İlk baxışdan xırda, önәmsiz tәsir bağışlayan mәqamların kölgәdә qalan mәnasını, problemlәrin mәzmununu anlamadan irәlilәmәk mümkün deyil.



**Oğlaq** - Hәr şeyi mümkün qәdәr qısa müddәtә bitirmәk istәyi heç yaxşı mәziyyәt deyil. Maksimum sürәtdәn sonra uzunmüddәtli istirahәtә ehtiyac duyulduğundan fәaliyyәt tempini dәqiq müәyyәnlәşdirin.



**Dolça** - Hadisәlәrin gedişatına kәnar müdaxilәlәrә imkan vermәyin. Emosiyalarınıza mәğlub olsanız, önәmli anda işlәrinizdә lәngimә vә ya tәxirәsalmalar yarana bilәr. Diqqәtsizlik sәhv riskini artırır.



**Balıqlar** - Çalışdığınız kollektivin qeyri-formal lideri olmağa can atmayın. Potensial rәqiblәrin davranışlarını diqqәtlә izlәyin, onların planlarını qabaqlamağa çalışın. Əvvәlcәdәn seçdiyiniz kursun uğurlu olması ehtimalı azdır.

*Qoroskop Rusiya vә Qәrb astroloqlarının proqnozları әsasında hazırlanıb*

## Avropanın әn uzunömürlülәri İtaliyada yaşayır

**İtaliya Avropanın әn uzunömürlülәr ölkәsidir. Son 10 il әrzindә öz 100 illik yubileyini qeyd edәn italyanların sayı 11 mindәn 14 min nәfәrә çatıb. Ölkәnin 1112 sakininin yaşı 105-i keçib.**

"Milli.Az" xәbәr verir ki, bu göstәricilәr İtaliyanın "Istat" Milli Statistika İnstitutunun dәrc etdiyi "Cent'anni e non sentirli" hesabatından götürülüb. 2019-cu il yanvarın 1-nә olan vәziyyәtә görә, İtaliyada yaşı 100-ü keçәn 14456 insan yaşayır. Onların 84 faizini qadınlar tәşkil edir. 2009-2019-cu illәr arası dövrdә yaşı 110-a çatan vә yuxarı olan 125 nәfәrin 93 faizi qadınlardır. İtaliya Avropa mәkanında Fransa ilә yanaşı, yaşı 100-dәn yuxarı uzunömürlülәrin sayına görә rekord vurub. Uzunömürlülәrin әksәriyyәti Şimali İtaliyada yaşayır. Hәmin tarixdә uzunömürlülәrin daimi әhalinin ümumi sayına nisbәtinin әn yüksәk olduğu region Liquriyadır (hәr 100 min nәfәrә 3,3). Sonrakı yerlәri Friuli-Venesiya-Culiya (hәr 100 min nәfәrә 3,0) vә Molize (hәr 100 min nәfәrә 2,6) tutur.

*Hazırladı: Ramil QULİYEV*

Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şәhәri, Mәtbuat pr. 529-cu mәhәllә, 6-cı mәrtәbә*

Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

Reyestr № 0106-P219-45846

Qәzet hәftәdә 5 dәfә çıxır. (Bazar vә bazar ertәsindәn başqa). «BZ»-dә çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qәzetdә «Olaylar» vә «Trend» informasiya agentliklәrinin materiallarından istifadә edilir.

Reklam mәtninә görә qәzet mәsuliyyәt daşımır.